Şahbaz Muradov
i.e.d., prof. AMEA-nın müxbir üzvü
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutu "Demoqrafiya və məşğulluq problemləri" şöbəsinin müdiri
UOT:31;33;338.; JEL:A11;A13;A19;F63;I31;I38.

Azərbaycan Respublikasında demoqrafik vəziyyət: əsas meyllər və problemlər

Xülasə

Məqalədə Azərbaycan Respublikasının şəhər və kənd yerlərində, ayrı-ayrı iqtisadi rayonların əhalisinin sayında, əhalinin cins-yaş quruluşunda, əhalinin təbii təkrar istehsal göstəricilərində (doğum, ölüm, təbii artım), əhalinin miqrasiyasında, sağlamlığında, ömür uzunluğunda, nikah və boşanmalarında və sair demoqrafik hadisə və proseslərdə baş vermiş dəyişikliklər və onlara təsir edən amillər tədqiq və təhlil edilib qiymətləndirilmiş və bunlardan irəli gələn demoqrafik siyasət tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsinə dair təklif və tövsiyələr verilmişdir.

Giriş

Tarixi inkişafın müasir mərhələsində bəşəriyyəti narahat edən qlobal problemlər arasında dünya əhalisinin sürətlə artıb-çoxalması və 2022-ci ilin məlumatlarına əsasən dünya miqyasında əhalinin hər 1000 nəfərinə düşən təbii artımın 9 nəfər təşkil etməsinə rəğmən bu göstəricinin dünya əhalisinin 59,4 faizinin (4,730 min nəfər) yaşadığı Asiya qitəsində - 8 nəfər; 17,8 faizinin (1,419 min nəfər) yaşadığı Afrika qitəsində - 24 nəfər; 8,2 faizinin (656 milyon nəfər) yaşadığı Latın Amerikası və Karib hövzəsində - 7 nəfər; 4,7 faizinin (372 milyon nəfər) yaşadığı Şimali Amerikada – 70 nəfər; 0,6 faizinin (372 milyon nəfər) yaşadığı Şimali Amerikada cəmi 1 nəfər; 9,6 faizinin (742 milyon nəfər) yaşadığı Avropa qitəsində isə mənfi 4 nəfər təşkil etməsi xüsusi yer tutur. Nəzərə alsaq ki, qeyd edilən dövrdə Azərbaycan Respublikasında əhalinin hər 1000 nəfərinə düşən təbii artımın səviyyəsi 6,2 nəfər təşkil etmiş və bu göstəriciyə görə respublikamız əhalinin hər 1000 nəfərinə düşən təbii artımın 1-7 nəfər arasında tərəddüd etdiyi dünyanın 47 ölkəsindən biridir, onda ölkəmizin demoqrafik durumunda yaranmış bu vəziyyətin araşdırılmasının əhəmiyyətini sübut etməyə ehtiyac qalmır.

Açar sözlər: əhali, demoqrafik proseslər (doğum, ölüm, təbii artım), əhalinin miqrasiyası, ömür uzunluğu, əhalisakinliyi, əhalinin məskunlaşması, insan potensialı, əhalinin sağlamlığı, demoqrafik əmsallar, nikah, boşanma, demoqrafik qanunauyğunluqlar

Əsas mətn

Hər bir ölkənin əsas milli sərvəti onun əhalisindən ibarətdir. İctimai istehsal prosesinin əsasının və subyektini [4;5] təşkil edən insanların sayı və onların fiziki və zehni cəhətdən inkişaf etmiş hissəsi hansı ölkədə çoxdursa həmin ölkə daha böyük sosial-iqtisadi inkişaf potensialına malikdir. K.Marks və F.Engels hələ vaxtilə **"Alman ideologiyası"** adlı əsərlərində yazmışlar ki: **"Bütün bəşəriyyət tarixinin birinci müqəddəm şərti, əlbəttə, canlı insan fərdlərinin mövcud olmasıdır"** [6]. İnsanlar, bütün cəmiyyətlərdə istehsal prosesinin başlıca və inqilabçı ünsürünü təşkil etməklə yanaşı, həm də maddi nemətlərin istehsalçısı, istehlakçısı və nəslin davam etdirilməsi kimi çıxış edirlər. Nəslin davam etdirilməsi **canlı insan fərdlərinin mövcud olmasından,** canlı insan fərdlərinin mövcud olması isə **demoqrafik proseslərdən asılıdır.** Demoqrafik proseslər ayrı-ayrı adamlara aid olan faktlardan ibarət olduğundan demoqrafik hadisə və proseslər də əhalinin sayından, onun cins tərkibi və yaş quruluşundan, nikah və boşanma səviyyəsindən; bunlar isə öz növbəsində

kompleks sosial-iqtisadi, sosial-siyasi, mədəni, etno-demoqrafik və sair amillərdən asılıdır. Əhali özlüyündə mücərrəd anlayış olsa da, onda baş verən dəyişikliklər demoqrafik proseslərdə əks olunur. Demoqrafik proseslər isə cəmiyyət həyatının bir çox tərəfləri ilə qarşılıqlı surətdə bağlıdır. Bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və öz növbəsində demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirində təzahür edir. Hazırda cəmiyyətdə elə bir ictimai fəaliyyət dairəsi tapmaq mümkün deyildir ki, orada demoqrafik proseslərin xarakteri, yaxın və uzaq gələcəyə, onların dəyişilməsi meyllərinin öyrənilməsinə maraq olmasın. Əhali və iqtisadiyyat vahid ictimai orqanizmin ünsürləri olduğundan bütün cəmiyyətlərdə ictimai istehsalın baş verməsi və ahəngdar surətdə davam etməsi üçün müəyyən sayda fiziki və zehni qabiliyyətə, sağlamlığa, təhsilə, bilik və bacarığa, ixtisasa, peşə hazırlığına, mənəvi-psixoloji keyfiyyətlərə və mədəniyyətə malik olan intellektual insan potensialının mövcud olması obyektiv zərurət təşkil edir. Bütün bunlar isə hər şeydən onunla bağlıdır ki, **əvvəla,** əhali cəmiyyətin başlıca məhsuldar qüvvələrini təşkil etdiyindən sosial-iqtisadi, elm, təhsil, mədəniyyət və sair sahələrdə əldə edilmiş mümkün olan hər nə varsa onların hamısı insanların malik olduqları əmək qabiliyyətlərinin bütünlükdə cəmiyyətin və onun hər bir üzvünün mənafeyi baxımından necə və nə cür reallaşdırılmasından asılıdır. **ikincisi,** insanlar özlərinin əmək, sosial və siyasi fəallığını müəyyən edən məcmu ictimai münasibətlərin ardıcıl olaraq təkrarlanmasının fəal subyekti kimi çıxış edərək iqtisadi və sosial inkişafın sağlamlaşdırılması, ictimai istehsalın səmərəliliyinin yüksəldilməsi və elmi-texniki tərəqqinin sürətləndirilməsində aparıcı rol oynayırlar.

Azərbaycan Respublikası dünyada özünəməxsus etno-demoqrafik inkişaf xüsusiyyətlərinə malik olan tolerant bir ölkə kimi tanınır. 2023-cü ilin əvvəlinə olan rəsmi statistik məlumatlara əsasən Azərbaycan Respublikasının əhalisinin sayı 10127,1 min nəfər olmuşdur. Onların 5039,6 min nəfərini və ya 49,8 faizini kişilər, 5087, min nəfərinə və ya 50,2 faizini isə qadınlar təşkil etmişlər [4;5]. Əvvəldə qeyd edildiyi kimi, hazırda bəşəriyyəti narahat edən qlobal problemlər arasında dünya əhalisinin sürətli artımı və demoqrafik proseslərdə baş verən dəyişikliklərlə bağlı məsələlər mühüm yer tutur. Təsadüfi deyildir ki, dünya əhalisinin sürətli artması ilə yanaşı ölkələrarası əhali miqrasiyasında (Beynəlxalq Əhali Miqrasiyası) baş verən dəyişikliklər indi ayrı-ayrı dövlətlərin ölkə daxilində və beynəlxalq aləmdə yeritdikləri siyasətə daha çox təsir göstərir və onlara **"demoqrafik aspekt"** verərək, onların qoyuluşu və həllinə yeni mövqelərdən yanaşılmasını tələb edir. Axı, cəmi 100 ildən bir qədər çox vaxt ərzində (1900-2022-ci illər) dünya əhalisinin sayı 4,9 dəfə artaraq 1630 milyon nəfərdən 8030,9 milyon nəfərə gəlib çatmışdır. Halbuki, tarixi faktlara əsasən dünya əhalisinin sayının 1 milyard nəfərə gəlib çatması üçün 123 il (1804-1927-ci illər); 3 milyard nəfərə çatması üçün 13 il (1927-1960-cı illər); 4 milyard nəfərə çatması üçün 14 il (1960-1974-cü illər); 5 milyard nəfərə çatması üçün 13 il (1974-1987-ci illər); 6 milyard nəfərə çatması üçün 12 il (1987-1999-cu illər); 7 milyard nəfərə çatması üçün 12 il (1999-2011-ci illər); 8 milyard nəfərə çatması üçünsə cəmi 11 il (2011-2022-ci illər) vaxt lazım olmuşdur [7].

Dünya miqyasında əhalinin artımında və demoqrafik proseslərdə baş vermiş dəyişikliklər bu və ya digər formada Azərbaycan Respublikasından da yan keçməmişdir. 1897-ci ildə Çar Rusiyasında keçirilmiş Birinci Ümumi Əhali Siyahıyaalınması məlumatlarına əsasən üç quberniyanı – Bakı, Yelizavetopol (indiki Gəncə) və İrəvan quberniyalarını əhatə edən Şimali Azərbaycanın əhalisinin sayı 2534,7 min nəfər, indiki sərhədləri çərçivəsində isə 1806,7 min nəfər təşkil etmişdir [4; 10]. 1897-1997-ci illəri əhatə edən 100 il ərzində isə Azərbaycan Respublikasının əhalisinin sayı 5993,1 min nəfər və ya 4,3

dəfədən çox, artaraq 1806,7 min nəfərdən 7799,8 min nəfərə gəlib çatmış, yəni hər il orta hesabla 59,9 min nəfər çoxalmışdır [4; 10]. 1997-ci ildən keçən 25 il ərzində Azərbaycan respublikasının əhalisinin sayı 2327,3 min nəfər və ya 129,8 faiz artaraq 2023-cü ilin əvvəlinə 10127,1 min nəfərə gəlib çatmış, yəni hər il orta hesabla 94,1 min nəfər artmışdır. Bu isə o deməkdir ki, son 25 il ərzində (1997-2023-cü illər) respublikamızın əhalisinin orta illik artımı 1897-1997-ci illəri əhatə edən 100 il ərzindəki orta illik artımından 34,2 min nəfər və ya təqribən 1,6 dəfə (157,1 faiz) çox olmuşdur. Burada onu da qeyd etmək lazımdır ki, 1997-2023-cü illər ərzində ölkəmizdəki əhali artımının 1857,2 min nəfəri və ya 79,8 faizi 2003-2023-cü illərin payına düşmüşdür. 2003-2023-cü illərdə ölkəmizdə əhalinin sayı 1857,2 min nəfər və ya 122,5 faiz artaraq 8269,2 min nəfərdən 10127,1 min nəfərə çatmışdır.

Bütün bunlar təsadüfi olmayıb ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, sosial-siyasi və mədəni həyatında baş vermiş bir sıra köklü dəyişikliklərlə bağlı olmuşdur. Bu dəyişikliklər 1991-ci il oktyabr ayının 18-də "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildikdən, yəni respublikamız yenidən öz müstəqilliyini bərpa etdikdən sonra özünü daha aydın şəkildə büruzə verməyə başlamışdır. Belə ki, Azərbaycan Respublikası 1991-ci ilin oktyabr ayının 18-də öz müstəqilliyini bərpa etdikdən sonra burada baş vermiş ictimai-siyasi və sosial-iqtisadi dəyişikliklər bütün başqa sahələrdə olduğu kimi ölkə əhalisinin dinamikası və quruluşuna da təsirsiz qalmamışdır.

Müstəqillik illərində (1991-2023-cü illər) Azərbaycan Respublikasında, onun şəhər və kənd yerlərində yaşayan əhalinin dinamikasında baş vermiş dəyişiklikləri aşağıdakı 1-ci cədvəlin məlumatlarından aydın görmək olar. Həmin cədvəlin məlumatlarından göründüyü kimi müstəqillik illərində (1991-2023-cü illər) respublikamızın əhalisinin sayı 2908,6 min nəfər və ya 140,3 faiz artaraq 7218,5 min nəfərdən 10127,1 min nəfərə, o cümlədən kişilərin sayı 1515,5 min nəfər və ya 143 faiz artaraq 3524,1 min nəfərdən 5039,6 min nəfərə, qadınların sayı isə 1393,1 min nəfər və ya 137,7 faiz artaraq 3694,4 min nəfərdən 5087,5 min nəfərə gəlib çatmış və nəticədə ölkə əhalisi arasında qadınların xüsusi çəkisi 1 faiz bənd azalaraq 51,2 faizdən 50,2 faizə düşmüşdür. Müqayisə edilən dövrdə şəhər əhalisinin sayı 1668,8 min nəfər və ya 143,3 faiz artaraq 3858,3 min nəfərdən 5527,1 min nəfərə, kənd əhalisinin sayı isə 1239,7 min nəfər və ya 136,9 faiz artaraq 3360,2 min nəfərdən 4599,9 min nəfərə qalxmışdır. Bu dəyişikliyin nəticəsində isə ölkə əhalisinin arasında şəhər əhalisinin xüsusi çəkisi 1,1 faiz bənd artaraq 53,5 faizdən 54,6 faizə qalxmış, kənd əhalisinin xüsusi çəkisi isə eyni qaydada azalaraq 46,5 faizdən 45,4 faizə düşmüşdür. Müstəqilliyimizin ayrı-ayrı mərhələlərində ölkə əhalisinin, o cümlədən şəhər və kənd əhalisinin artım surəti, onların cins quruluşu; şəhər və kənd yerləri arasındakı bölünməsi nisbətlikləri də eyni qalmamış və müxtəlif sosial-iqtisadi, ictimai-siyasi, mədəni və etno-demoqrafik və sair amillərin təsiri nəticəsində müxtəlif istiqamətlərdə artıb-azalmaqla dəyişmişdir. Yuxarıdakı cədvəlin məlumatlarından görünür ki, müstəqillik illərində ölkəmizdə, xüsusilə də onun şəhər yerlərində əhalinin ən az artdığı dövr 1991-1995-ci illərdə özünü büruzə vermişdir. Belə ki, bütünlükdə götürüldükdə 1991-2023-cü illərdə ölkəmizdə əhalinin sayı 138,9 faiz, o cümlədən şəhər yerlərində 142,4, kənd yerlərində 134,9 faiz; 2003-2023-cü illərdə isə müvafiq surətdə 122,5; 130,4 və 114,1 faiz artdığı halda 1991-1905-ci illərdə bu göstəricilərin səviyyəsi müvafiq surətdə cəmi 105,9; 105,1 və 108,3 faiz təşkil etmişdir.

Cədvəl 1.

Müstəqillik illərində Azərbaycan Respublikası və onun şəhər və kənd yerlərində əhalinin dinamikası

	Əhalinin sayı (min nəfər)	Onlardan		Bütün əhaliyə nisbətən qadınlar (%)	Bütün əhalidən		Bütün əhali arasında %	
		Kişilər	**Qadınlar**		**Şəhər əhalisi (min nəfər)**	**Kənd əhalisi (min nəfər)**	**Şəhər əhalisi**	**Kənd əhalisi**
1991	7218,5	3524,1	3694,4	51,2	3858,3	3360,2	53,5	46,5
1992	7324,1	3579,2	3744,9	51,1	3884,4	3939,7	53,0	47,0
1993	7440,0	3641,2	3798,8	51,1	3928,5	3511,5	52,8	47,2
1994	7549,6	3702,5	3847,1	51,0	3970,9	3578,7	52,6	47,4
1995	7643,5	3754,6	3888,9	50,9	4005,6	3637,9	52,4	47,6
1999	7953,4	3883,1	4070,3	51,1	4064,3	3889,1	51,1	48,9
2000	8032,8	3922,8	4110,0	51,2	4116,4	3916,4	51,1	48,9
2003	8269,2	4058,0	4211,2	50,9	4237,6	4031,6	51,2	48,8
2005	8447,4	4156,6	4291,2	49,2	4423,4	4024,0	52,4	47,6
2009	8922,4	4414,4	4508,0	49,5	4739,1	4183,3	53,1	46,9
2010	8997,6	4455,5	4542,1	49,5	4774,9	4222,7	53,1	46,9
2015	9593,0	4775,8	4817,0	49,8	5098,2	4494,7	53,1	46,9
2019	9951,4	4948,5	5002,9	50,3	5440,2	4511,2	54,9	45,1
2021	11026,1	4986,5	5039,6	50,3	5454,4	4531,7	54,8	45,2
2023	10127,1	5039,6	55087,5	50,2	5527,2	4599,9	54,6	45,4
1991-2023-ci illərdə %	138,9	141,5	136,4	-0,9	142,4	134,9	+1,1	+1,4
1991-1995-ci illərdə %	105,9	106,5	105,3	-0,3	105,1	108,3	-1,1	+1,1
2003-2023-cü illərdə %	122,5	124,2	120,8	-0,7	130,4	114,1	+3,4	-3,4

Cədvəl: [4; 5] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Müstəqillik illərində (1991-2023-cü illər) Azərbaycan Respublikası əhalisinin artımının əsas mənbəyini onun doğum səviyyəsi ilə ölüm səviyyəsi arasındakı fərqi özündə əks etdirən təbii artımı təşkil etmişdir. Bu və ya digər ölkədə və onun ayrı-ayrı regionlarında əhalinin təbii təkrar istehsalı prosesi və onun səviyyəsi isə ayrı-ayrılıqda götürülmüş hər hansı bir amildən deyil, kompleks amillərin məcmusundan asılıdır. Bu amillərin təsiri isə ayrı-ayrı ictimai-iqtisadi quruluşlarda və onların müxtəlif inkişaf mərhələlərində mövcud olan istehsal münasibətlərinin xarakterindən və xüsusiyyətlərindən, məhsuldar qüvvələrin inkişaf səviyyəsindən asılıdır. Eyni zamanda, müxtəlif ictimai-iqtisadi şəraitdə əhalinin təbii təkrar istehsalı prosesi - əhalinin doğub törəməsi, yəni onun **təbii artımı qanununda** öz əksini tapır və bu səbəbdən də o, başqa bir qanunun – **sosial-demoqrafik qanunun** məzmununa daxildir. Bu qanun özündə demoqrafik prosesləri əks etdirdiyindən, müxtəlif ölkələrdə əhalinin təbii təkrar istehsal səviyyəsi həmin ölkələrin malik olduğu təkcə tarixi inkişaf xüsusiyyətləri və mövcud istehsal münasibətləri ilə deyil, həm də başqa ictimai-siyasi, sosial-iqtisadi, mədəni, bioloji, sosial-psixoloji, etno-demoqrafik, ailə-məişət, təbii şərait, hüquqi, mənəvi-əxlaqi və sair amillərlə şərtləşir. Müstəqilliyimizin ilk illərində (1991-1995-ci illərdə) ölkəmizdə yaranmış böhranlı vəziyyət burada əhalinin müxtəlif demoqrafik qruplara və təbəqələrə aid hissəsinin yaşayış vəziyyətinin pisləşməsi və 1988-ci ildən başlayaraq ölkəmizə erməni

təcavüzü ilə bağlı olmuşdur. Belə ki, 1988-1993-cü illərdə erməni təcavüzü nəticəsində Azərbaycanın ərazisinin 20 faizi, yəni keçmiş Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon işğal edilmiş, 1 milyon nəfərədək soydaşımız öz vətənlərində qaçqın və köçkün vəziyyətinə düşmüş, 30 min Azərbaycan vətəndaşı həlak olmuş, 200 mindən çox adam yaralanmış və əlil olmuş, minlərlə adam əsir düşüb, girov götürülmüş, itkin düşmüş, 900-dən çox irili-xırdalı yaşayış məntəqəsi, 600-dək məktəb, 250 tibb müəssisəsi, bütün muzeylər, tarix və mədəniyyət abidələri məhv edilmişdir. Ermənistan silahlı qüvvələrinin Rusiya Müdafiə Nazirliyinin tabeliyində olan və Xankəndidə yerləşmiş 366-cı motoatıcı alayının bilavasitə iştirakı və köməkliyi ilə azərbaycanlılara qarşı soyqırımı cinayətlərinin miqyasının, necə vəhşilik və qəddarlıqla həyata keçirdiklərini təsəvvür etmək üçün 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə keçmiş Dağlıq Qarabağın Xocalı şəhərində baş vermiş faciəni yada salmaq kifayətdir. Bəşər tarixində ən böyük müsibətlərdən olan bu faciə zamanı bütöv bir şəhər erməni qoşunları tərəfindən yerlə-yeksan edilmiş, 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın vəhşicəsinə öldürülmüş, 487 nəfər şikəst edilmiş, 1275 sakin – qocalar, uşaqlar, qadınlar isə əsir aparılaraq dəhşətli təhqirlərə və həqarətə məruz qalmışlar [3].

Qeyd edilən dövrdə ölkəmizin **demoqrafik vəziyyəti** əhalinin sağlamlığının pisləşməsi, doğum səviyyəsinin sürətlə aşağı düşməsi, ölüm səviyyəsinin artması (əsasən əmək qabiliyyətli yaşda olan əhali arasında), ana və uşaq ölümünün yüksəkliyi, əhalinin artım sürətinin azalması, immiqrasiya və miqrasiya proseslərinin sürətlənməsi və sairlə səciyyələnirdi. Həmin illərdə ölkəmizdə yaranmış demoqrafik vəziyyətin kəskinləşməsi bir sıra kompleks sosial-iqtisadi və demoqrafik xarakterli amillərlə, o cümlədən sosial-infrastruktur sahələrinin son dərəcə zəif inkişaf etməsi və əhalinin əksəriyyət hissəsinin onların xidmətlərindən lazımi dərəcədə istifadə etmək imkanlarına malik olmaması; işğal olunmuş ərazilərdə 300 mindən çox iş yerlərinin itirilməsi; ölkə əhalisi arasında müxtəlif xəstəliklərin artması; əhali tərəfindən istehlak edilən ərzaq məhsullarının keyfiyyətinə və satışına nəzarətin həddən artıq zəif olması; ekoloji tarazlığın pozulmasının sürətləndirilməsi və ona nəzarətin zəif olması; sağlam yaşayış tərzinin ləng formalaşması; ölkədə əhalinin miqrasiyası proseslərinin tənzimlənməməsi; demoqrafik inkişaf sahəsində dövlət proqramının olmaması və nəhayət demoqrafiya sahəsində həyata keçirilən ayrı-ayrı tədbirlərin ardıcıl, məqsədyönlü və sistem xarakteri daşımaması və s. bağlı olmuşdur. Təsadüfi deyildir ki, müstəqilliyimizin ilk illərində (1991-1995-ci illərdə) Azərbaycanda əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi təqribən 29,0 faiz azalaraq 26,6 nəfərdən 18,9 nəfərə, təbii artım səviyyəsi 40,0 faiz azalaraq 20,3 nəfərdən 12,2 nəfərə düşmüş, ölüm səviyyəsi isə 6,3 faiz artaraq 6,3 nəfərdən 6,7 nəfərə qalxmışdır. Bu göstəricilər şəhər və kənd yerlərində xeyli fərqli olmuşdur. Belə ki, əgər qeyd edilən dövrdə şəhər yerlərində əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 30,2 faiz azalaraq 23,5 nəfərdən 16,4 nəfərə, təbii artım səviyyəsi 43,7 faiz azalaraq 17,4 nəfərdən 9,8 nəfərə düşmüş, ölüm səviyyəsi isə 8,2 faiz artaraq 6,1 nəfərdən 6,6 nəfərə qalxmışdırsa, kənd yerlərində həmin göstəricilər müvafiq surətdə doğum səviyyəsi üzrə 28,2 faiz azalaraq 30,2 nəfərdən 21,7 nəfərə, təbii artım səviyyəsi üzrə 37,4 faiz azalaraq 23,8 nəfərdən 14,9 nəfərə düşmüş, ölüm səviyyəsi üzrə isə 6,3 faiz artaraq 6,4 nəfərdən 6,8 nəfərə qalxmışdır [4; 5]. Bu illər ərzində respublikada hər 1000 nəfər diri doğulanlara düşən 5 yaşadək ölən uşaqların sayı isə 7,7 faiz artaraq 40,1 nəfərdən 43,2 nəfərə, o cümlədən oğlan uşaqları arasında 7,0 faiz artaraq 42,9 nəfərdən 45,9 nəfərə, qız uşaqları arasında isə 8,0 faiz artaraq 37,3 nəfərdən 40,3 nəfərə; hər 100 min nəfər diri doğulana düşən ana ölümü isə 3,5 dəfədən çox artaraq 10,5 nəfərdən 37 nəfərə qalxmışdır [4; 5]. Bütünlükdə götürüldükdə müstəqillik illərində Azərbaycan respublikasında və onun ayrı-ayrı iqtisadi rayonlarında əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayında baş vermiş

dəyişikliklər isə aşağıdakı 2-ci cədvəldə öz əksini tapmışdır. 2-ci cədvəlin məlumatlarından görünür ki, tədqiq edilən dövrdə bütünlükdə respublikamızda və onun ayrı-ayrı iqtisadi rayonlarında əhalinin hər 1000 nəfərinə düşən doğum, ölüm və təbii artım daim artıb-azalmaqla diqqəti cəlb etmişdir. Ümumi qanunauyğunluq ondan ibarətdir ki, əhalinin hər 1000 nəfərinə düşən doğumun səviyyəsi 1990-2020-ci illər ərzində tədricən azalmağa doğru meyl etmişdir. Belə ki, əgər əhalinin hər 1000 nəfərinə düşən doğulanların sayı 1990-2019-cu illər ərzində 43,3 faiz azalaraq 25,9 nəfərdən 14,7 nəfərə düşmüşdürsə, axır 4 il ərzində (2019-2022-ci illərdə) 14,7 faiz azalaraq 14,3 nəfərdən 12,2 nəfərə düşmüşdür. Bu göstəricinin səviyyəsi ayrı-ayrı iqtisadi rayonlarda bir-birindən xeyli fərqli olaraq özünü büruzə vermişdir. Məsələn, əgər bu göstərici Bakı şəhərində birinci dövrdə 33,3 faiz azalaraq 19,5 nəfərdən 13,0 nəfərə, ikinci dövrdə isə 18,5 faiz azalaraq 13,0 nəfərdən 10,6 nəfərə dümüşdürsə, Naxçıvan MR-da müvafiq surətdə 59,2 faiz azalaraq 28,9 nəfərdən 11,8 nəfərə və 16,9 faiz azalaraq 11,8 nəfərdən 9,8 nəfərə düşmüşdür.

Ümumiyyətlə götürüldükdə əgər 1990-cı ildə ölkəmizin ayrı-ayrı iqtisadi rayonlarında əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 24,6 nəfərlə (Gəncə-Daşkəsən) 31,4 nəfər (Quba-Xaçmaz) arasında; 2019-cu ildə 9,9 nəfərlə (Quba-Xaçmaz) 17,2 nəfər (Mil-Muğan) arasında tərəddüd etməklə dəyişmişdirsə, 2021-ci ildə 8,8 nəfərlə (Naxçıvan MR) 13,8 nəfər (Dağlıq Şirvan) arasında tərəddüd etməklə dəyişmişdirsə, 2022-ci ildə 9,8 nəfərlə (Naxçıvan MR) 15,7 nəfər (Dağlıq Şirvan) arasında tərəddüd etməklə dəyişmişdir ki, bu da onu deməyə əsas verir ki, son illərdə ölkəmizdə əhalinin doğum səviyyəsi əvvəlki illərlə müqayisədə azalmağa doğru meyl etməkdə davam edir. Əhalinin doğum səviyyəsinə bir çox kompleks sosial-iqtisadi, sosial-demoqrafik, sosial-psixoloji, etno-demoqrafik və sair amillər, o cümlədən şəhər və kənd əhalisinin sayı arasındakı nisbətlik; əhalinin tərkibində fertil yaşlı qadınların (15-49 yaşda) xüsusi çəkisi, əhalinin maddi və mədəni həyat səviyyəsi, qadın və kişilərin təhsil, məşğulluq, peşə-ixtisas səviyyəsi və sair kimi bir çox amillər təsir göstərir. Burada onu da qeyd etmək lazımdır ki, demoqrafiya elmində belə bir ümumi qanunluq vardır ki, əhalinin əvvəlki sayındakı sadə təkrar istehsalını təmin etmək üçün gərək ümumi doğum əmsalı ən azı 2,15 olsun. Real doğum əmsalını bu göstəriciyə (2,15-ə) bölməklə **əhalinin təkrar istehsalı tipini müəyyən** etmək olar. Əgər real ümumi doğum əmsalı 2,15-dən kiçik olarsa bu o deməkdir ki, doğumun intensivliyi aşağıdır və sonrakı nəsillərdən olan insanların sayı əvvəlki nəsillərdən olan insanların sayından az olacaqdır. Bu əmsal 4,3-dən yuxarı olduqda doğumun intensivliyinin də yuxarı olduğu və hər bir sonrakı nəsillərdən olan insanların sayının əvvəlki nəsillərdən olan insanların sayından təqribən iki dəfə çox olacağını deməyə əsas verir.

Ümumiyyətlə götürüldükdə isə demoqrafiya elmində qəbul edilmiş bir qanunauyğun hal olaraq ümumi doğum əmsalı 2,15-lə 4,3 arasında tərəddüd edirsə bu o deməkdir ki, doğumun intensivliyi nə **yüksək** və nə də **aşağı səviyyədə** deyil, **orta səviyyədədir.** Burada onu da qeyd etmək lazımdır ki, ölüm səviyyəsinin mövcud durumu nəzərə alınmaqla fertil yaşda (15-49 yaş) olan qadınların hər biri həmin yaş dövrü ərzində orta hesabla ən azından 2,1-2,3 nəfər uşaq doğmalıdır ki, nəslin sadə təkrar istehsalını təmin etmək mümkün olsun. Yəni, ata və ananı əvəzləmək mümkün olsun. Apardığımız tədqiqatların nəticələri göstərir ki, ölkəmizdə əhalinin normal təkrar istehsalı prosesini həyata keçirmək üçün respublikamızda mövcud olan və yeni yaradılan ailələrin ən azı 70-80 faizində 2-3 nəfər; həmin ailələrin 40-45 faizində 2 nəfər; 30-40 faizində isə 3 nəfər uşaq doğulub tərbiyə edilməsi tələb olunur. Burada onu da qeyd etmək lazımdır ki, əhalinin təbii təkrar istehsal səviyyəsinin öyrənilməsində istifadə edilən ən mühüm göstəricilərdən biri **ümumi nəsilvermə** (fertillik) əmsalıdır. Müstəqillik

illərində (1991-2022-ci illər) nəsilvermə əmsalı **Azərbaycan Respublikasında 41,4 faiz azalaraq 2,9-dan 1,7-yə; o cümlədən şəhər yerlərində 40,0 faiz azalaraq 2,5-dən 1,5-ə, kənd yerlərində isə 42,4 faiz azalaraq 3,3-dən 1,9-za düşmüşdür** [4; 5]. Yuxarıda qeyd etdiyimiz kimi bu ümumi nəsilvermə əmsalı reproduktiv yaş dövründə (15-49 yaş) bir qadın tərəfindən orta hesabla doğula biləcək uşaqların sayını göstərir. Ümumi nəsilvermə (Fertillik) əmsalı - ümumi nəsilvermə əmsalı reproduktiv dövr (15-49 yaş) ərzində bir qadının orta hesabla neçə uşaq doğa bildiyini göstərir. Bu əmsal doğumun yaş əmsallarını hər yaş intervalının uzunluğuna vurulub toplamaq yolu ilə hesablanır. Bir illik əmsallar üçün vururuq birə, 5 illik əmsallar üçün və s hesablanır. Nəticədə 1000-ə bölünür, yəni bu göstərici orta hesabla bir qadın üçün hesablanır.

Cədvəl 2.

Müstəqillik illərində Azərbaycan Respublikası və onun iqtisadi rayonlarında əhalinin təbii hərəkətində baş vermiş dəyişikliklər (əhalinin hər 1000 nəfərinə düşən)

	1990			1995			2000			2019			2020			2022		
	Doğum	**Ölüm**	**Təbii artım**	**Doğum**	**Ölüm**	**Təbii artım**	**Doğum**	**Ölüm**	**Təbii artım**	**Doğum**	**Ölüm**	**Təbii artım**	**Doğum**	**Ölüm**	**Təbii artım**	**Doğum**	**Ölüm**	**Təbii artım**
Azərbaycan Respublikası	25,9	6,1	19,8	18,9	6,7	12,2	14,7	5,9	8,8	14,3	5,6	8,7	12,7	7,6	5,1	12,2	6,0	6,2
Bakı şəhəri	19,5	6,6	12,9	14,9	7,4	7,5	41,6	5,8	5,8	13,0	5,6	7,4	10,9	7,5	3,4	10,6	4,4	6,2
Naxçıvan MR	28,9	5,0	23,9	25,1	6,1	19,0	16,1	5,4	10,7	11,8	4,5	7,3	10,0	6,2	3,8	9,8	5,0	4,8
Abşeron-Xızı	25,0	3,8	21,2	20,5	7,0	13,5	13,5	5,1	8,4	13,0	5,3	7,7	11,9	6,8	5,1	8,3	4,3	4,0
Dağlıq Şirvan	29,8	7,0	22,8	23,2	7,6	15,6	19,6	6,9	12,7	17,0	5,7	11,3	15,8	7,6	8,2	15,7	6,5	9,2
Gəncə-Daşkəsən	24,6	6,1	18,5	18,1	7,0	11,1	13,7	6,3	7,4	13,2	6,7	6,5	13,4	8,9	4,5	12,0	2,3	4,7
Qarabağ	28,2	5,9	22,3	14,9	4,1	10,8	13,9	4,3	9,6	14,4	5,1	9,3	12,2	6,9	5,3	14,1	6,3	7,8
Qazax-Tovuz	26,1	6,7	19,4	21,9	8,7	13,2	17,5	7,3	10,6	14,8	6,9	7,9	13,3	8,7	4,6	14,9	7,4	7,5
Quba-Xaçmaz	31,4	7,2	24,2	21,3	8,4	12,9	18,1	7,3	10,8	9,9	5,9	4,0	15,4	7,7	7,4	13,8	6,0	7,8
Lənkəran-Astara	26,7	6,0	20,7	24,4	6,8	17,6	19,7	5,6	14,1	16,0	4,9	11,1	14,8	6,7	8,1	14,9	3,2	9,7
Mərkəzi Aran	30,6	6,6	24,8	23,3	8,0	15,3	15,6	6,5	9,1	15,0	6,0	9,0	14,0	8,8	5,2	13,6	6,3	7,3
Mil-Muğan	31,1	4,1	27,0	22,8	5,1	17,4	15,6	5,4	10,2	17,2	5,3	11,9	14,2	7,2	7,0	11,1	5,6	5,5
Şəki-Zaqatala	30,4	7,3	23,1	24,5	8,3	16,2	16,3	5,5	10,8	14,4	6,2	8,2	13,3	7,4	5,9	10,3	6,5	4,3
Şərqi Zəngəzur	28,8	6,8	22,0	12,1	3,6	8,5	17,1	4,1	13,0	15,3	5,6	9,7	11,3	7,6	5,7	14,3	6,4	7,9
Şirvan-Salyan	26,7	4,6	22,1	21,5	6,1	15,4	15,5	5,5	10,0	15,3	5,6	9,7	13,9	7,6	6,3	13,7	7,4	6,3

Cədvəl: [4; 5] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Əhalinin təbii təkrar istehsalı prosesinin həyata keçirilməsində hər iki cinsdən olan **insanların – kişilərin və qadınların hər birinin özünəməxsus rolu vardır. Ancaq bu prosesdə qadınların rolu əvəzsizdir.** Çünki, uşaqların doğulub boya-başa çatdırılmasının ağırlığının çoxu demək olar ki, qadınların üzərinə düşür. Əhalinin təbii təkrar istehsalı prosesinin həyata keçirilməsində 15-49 yaşda (reproduktiv yaşda) olan qadınların və o cümlədən də həmin yaş qrupuna daxil olan müxtəlif yaşda olan anaların rolunu diri doğulan bütün uşaqlar arasında onların tərəfindən doğulan uşaqların xüsusi çəkisindən aydın görmək

olar. Rəsmi statistik məlumatlara əsasən 2022-ci ildə ölkəmizdə diri doğulan uşaqların 10,0 faizi; o cümlədən şəhər yerlərində 6,2; kənd yerlərində 13,8 faizi 20 yaşadək olan anaların; müvafiq surətdə 64,0; 62,3 və 65,6 faizi 20-29 yaşda olan anaların; 25,9; 31,4 və 20,6 faizi isə 30-49 yaşda olan anaların payına düşmüşdür [4; 5]. Bu isə o deməkdir ki, respublikamızda, onun şəhər və kənd yerlərində diri doğulan uşaqların demək olar ki, 94,1 faizi; o cümlədən şəhər yerlərində 99,9 faizi; kənd yerlərində isə 100 faizi 15-49 yaşda olan anaların payına düşür. Bu isə o deməkdir ki, onların ölkə əhalisinin tərkibində həm mütləq və həm də nisbi surətdə artması mühüm sosial-demoqrafik əhəmiyyət kəsb edir. Bütünlükdə götürüldükdə respublikamızda 15-49 yaşda qadınların hər 1000 nəfərinə düşən diri doğulmuş uşaqların sayı isə 1991-2022-ci illərdə 54,0 faiz azalaraq 101,8 nəfərdən 46,8 nəfərə; 1991-1995-ci illərdə 30,4 faiz azalaraq 70,9 nəfərə; 1995-2003-cü illərdə isə 34,3 faiz azalaraq 46,6 nəfərə; 2003-2021-ci illərdə isə 6,7 faiz azalaraq 46,6 nəfərə düşmüş; 2003-2022-ci illərdə isə 100,4 faiz artaraq 46,6 nəfərdən 46,8 nəfərə qalxmışdır. Bu göstəricilər şəhər və kənd yerlərində isə aşağıdakı kimi dəyişmişdir. Qeyd edilən dövrdə respublikamızın şəhər yerlərində yaşamış 15-49 yaşda olan qadınların hər 1000 nəfərinə düşən diri doğulan uşaqların sayı 1991-2022-ci illərdə 55,3 faiz azalaraq 87,7 nəfərdən 41,1 nəfərə; 1991-1995-ci illərdə 30,4 faiz azalaraq 87,7 nəfərdən 60,5 nəfərə; 1995-2003-cü illərdə 60,6 faiz azalaraq 60,5 min nəfərdən 39,4 nəfərə düşmüş; 2003-2022-ci illərdə isə 104,3 faiz artaraq 39,4 nəfərdən 41,1 nəfərə qalxmış; kənd yerlərində isə müvafiq surətdə 1991-2021-ci illərdə 59,2 faiz azalaraq 118,8 nəfərdən 48,5 nəfərə; 1991-1995-ci illərdə 30,4 faiz azalaraq 118,8 nəfərdən 82,7 nəfərə; 1995-2003-cü illərdə 33,6 faiz azalaraq 82,7 nəfərdən 54,9 nəfərə; 2003-2022-ci illərdə isə 1,6 faiz azalaraq 54,9 nəfərdən 54,0 nəfərə düşmüşdür [4; 5]. Rəsmi statistik məlumatlara əsasən son 20 il ərzində (1999-2019-cu illər) respublikamızda yaşamış 15-49 yaşda olan əhalinin sayı 999,0 min nəfər və ya 123,3 faiz artaraq 4292,0 min nəfərdən 5291,0 min nəfərə, o cümlədən kişilərin sayı 591,2 min nəfər və ya 128,5 faiz artaraq 2076,7 min nəfərdən 2667,9 min nəfərə, qadınların sayı isə 407,8 min nəfər və ya 18,4 faiz artaraq 2215,3 min nəfərdən 2623,1 min nəfərə, qadınların xüsusi çəkisi isə 0,5 faiz bənd artaraq 51,6 faizdən 52,1 faizə qalxmışdır. Bu statistik rəqəmlərdən göründüyü kimi, müqayisə edilən dövrdə respublikamızda yaşayan 15-49 yaşda qadınların sayca artımı kişilərin sayının artımından 183,4 min nəfər; artım sürətindən isə 10,1 faiz bənd geridə qalmışdır [4; 5; 11]. Həmin illərdə respublikamızda yaşamış 20-29 yaşda olan gənclərin sayı isə 345,3 min nəfər və ya 127,0 faiz artaraq 1277,1 min nəfərdən 1622,4 min nəfərə, o cümlədən oğlanların sayı 228,2 min nəfər və ya 137,4 faiz artaraq 610,5 min nəfərdən 838,7 min nəfərə, qızların sayı isə 117,1 min nəfər və ya 117,5 faiz artaraq 666,6 min nəfərdən 783,7 min nəfərə çatmışdır. Bu isə o deməkdir ki, həmin illərdə 20-29 yaşda olan qızların sayca artımı oğlanların sayca artımının cəmi 51,3 faizini təşkil etmiş, artım sürəti isə oğlanların sayca artımından 19,9 faiz bənd geridə qalmışdır. Nəticədə, 1999-2020-ci illərdə respublikamızda yaşamış 20-29 yaşda olan gənclər arasında qızların xüsusi çəkisi 3,9 faiz bənd azalaraq 52,2 faizdən 48,3 faizə düşmüşdür [4; 5]. Nəzərə alsaq ki, hazırda ölkəmizdə 18-49 yaşda analar tərəfindən diri doğulan uşaqların 71,3 faizi, o cümlədən şəhərlərdə - 65,8 faiz; kəndlərdə 76,3 faizindən çoxu 20-29 yaşda olan anaların payına düşür [4; 5]. Gələcəkdə qeyd edilən yaşda olan qızların sayının mütləq və nisbi qaydada azalması ölkəmizdə demoqrafik vəziyyətin kəskinləşməsinə və buradan irəli gələn bir çox mənfi sosial-iqtisadi, sosial-demoqrafik və sosial-psixoloji nəticələrə gətirib çıxara bilər. Qeyd edilən yaş qruplarından olan gənclər arasında qızların xüsusi çəkisinin azalmasının əsas səbəblərindən biri son onilliklər ərzində bəzi ailələrdə qız uşaqlarının ana bətnində ikən xüsusi cihazlarla aşkarlayıb onların doğulmasının süni yollarla qarşısının alınmasında ibarətdir. Belə ki, uzun

illərin və tarixi inkişafın sınağından çıxmış demoqrafik hadisə və proseslərdə baş vermiş qanunauyğunluqlar onu göstərir ki, bir qayda olaraq diri doğulan hər 100 qız uşağına 105-106 oğlan uşağı düşür. Bu qanunauyğunluğu əsas götürərək son 50-60 il ərzində (1960-2020-ci illər) respublikamızda, o cümlədən onun şəhər və kənd yerlərində diri doğulan uşaqların sayında və cins tərkibində baş vermiş dəyişikliklərə nəzər salsaq yuxarıda qeyd etdiyimiz qanunauyğunluğun reallıq olduğunu görərik. Aşağıdakı 3-cü cədvəlin məlumatlarından göründüyü kimi, əgər 1960-1993-cü illər ərzində respublikamızda diri doğulan hər 100 qız uşağına düşən oğlanların sayı 104,1-107,2 nəfər arasında, o cümlədən şəhər yerlərində 104,5-107,8 nəfər arasında, kənd yerlərində isə 103,4-106,7 nəfər arasında tərəddüd edərək dəyişmişdirsə, 1995-2009-cu illərdə bu göstəricilər xeyli artaraq müvafiq surətdə ölkə üzrə 110,1-117,5 nəfər; o cümlədən şəhər yerlərində 113,1-119,5 nəfər; kənd yerlərində isə 107,7-118,5 nəfər arasında; 2003-2023-cü illərdə isə müvafiq surətdə 117,5-112,2; 119,5-110,5 və 115,9-113,8 arasında tərəddüd edərək dəyişmişdir. Doğrudur, son illərdə bu göstəricilərin səviyyəsində bir qədər azalma nəzərə çarpsa da hələ də yüksək olaraq qalmaqda davam edir. Burada diqqət çəkən bir hal da ondan ibarətdir ki, hazırda hər 100 nəfər qız uşağına düşən oğlanların sayı şəhər yerlərində olduğuna nisbətən kənd yerlərində xeyli yüksəkdir. Bütün bunlar isə istər-istəməz respublikada, onun şəhər və kənd yerlərində əhalinin cins quruluşu və tərkibinin kişilərin xeyrinə dəyişməsinə və buradan irəli gələn bir çox çətinliklər yaranıb inkişaf etməsinə səbəb olur. Daha doğrusu, doğulan uşaqların arasında qızların sayının mütləq və nisbi surətdə azalması heç şübhəsiz ki, yaxın və uzaq gələcəkdə ölkəmizdə əhalinin cins quruluşunun vəziyyətinin də kəskinləşməsinə, bəzi demoqrafik çətinliklərə, xüsusilə də gənclərin ailə qurmasının çətinləşməsinə, əhalinin artım surətinin azalmasına gətirib çıxara bilər. Çünki doğulan uşaqların sayı konkret ərazidə məskunlaşmış əhalinin tərkibində reproduktiv (doğmaq qabiliyyəti) qabiliyyətə malik olan qadınların sayından və onların ailə qurması vəziyyətindən asılıdır. Ona görə də ana bətnində ikən qız uşaqlarının dünyaya gəlməsinin süni yollarla qarşısının alınmasına dövlət səviyyəsində qadağa qoyulmalı və həmin prosesə müdaxilə edən tibb işçilərinə qarşı inzibati və hüquqi cəhətdən məsuliyyətə cəlb edilməsinə dair tədbirlər sistemi işlənib hazırlanmalı və həyata keçirilməlidir. Son illərdə ölkəmizdə əhalinin tərkibində qızların xüsusi çəkisinin azalmağa doğru meyl etməsində və əhalinin doğum səviyyəsinin azalmasında qeyd edilən amilin də təsiri az olmamışdır.

Cədvəl 3.

Azərbaycan Respublikasında diri doğulmuş hər 100 nəfər qız uşağına düşən oğlanların sayının dəyişməsi

İllər	Azərbaycan Respublika-sında cəmi diri doğulan uşaqlar – nəfər			Onlardan					
				Şəhər yerlərində			Kənd yerlərində		
	Oğlanlar	Qızlar	Hər 100 qıza düşən oğlanlar	Oğlanlar	Qızlar	Hər 100 qıza düşən oğlanlar	Oğlanlar	Qızlar	Hər 100 qıza düşən oğlanlar
1960	85221	80628	105,7	34015	31970	106,4	51206	48658	105,2
1970	7700	73976	104,1	32341	30944	104,5	44659	43032	103,4
1980	93739	87892	106,6	38933	36652	106,2	40665	38724	105,0
1990	94385	88604	106,5	44331	41677	106,4	50054	46927	106,5
1993	90342	84276	107,2	42423	39360	107,8	47919	44916	106,7
1995	75105	68210	110,1	34519	30536	113,1	40586	37674	107,7
1999	62759	54780	114,5	27211	22872	119,0	35548	31908	114,0
2000	62590	54404	115,1	26900	22731	118,3	36690	31673	112,7
2003	61299	52168	117,5	27803	23254	119,5	33496	28914	115,9

2005	76180	65721	115,9	34705	29636	117,1	41474	36065	114,2
2009	82216	69923	117,6	40171	34529	116,3	42045	35394	118,8
2010	89134	76509	116,5	43802	37950	115,6	45332	38559	117,7
2015	88415	77795	113,6	43037	38112	113,0	45378	38276	118,5
2019	75160	66019	113,9	36366	32299	112,6	38794	33720	115,1
2020	67407	59164	113,4	32547	28968	112,4	34860	30196	115,5
2021	60184	52100	115,5	28507	25258	113,0	31677	26842	118,0
2022	64940	57906	112,2	31319	28350	110,5	33621	29556	113,8

Cədvəl: [4; 5] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Hazırda respublikamızda diri doğulan uşaqların sayının və hər 1000 nəfərə düşən doğulanların sayının azalmasına təsir edən əsas demoqrafik amillərdən biri də son 16 il (2005-2021-ci illər) ərzində respublikamızda doğuşların sayı (ölü doğulanlar da nəzərə alınmaqla) 21,6 faiz azalaraq 141,1 mindən 110,7 minə düşmüş, abortların sayı isə təqribən 2,4 dəfə (239,9 faiz) artaraq 19586-dan 46877-yə çatmış və nəticədə hər 100 doğuşa düşən abortların sayı isə 3,0 dəfədən çox (304,3 faiz) artaraq 13,9-dan 42,3-dək yüksəlmişdir. Ayrı-ayrı yaş qruplarından olan qadınlar arasında bu göstərici xeyli fərqlidir. Belə ki, əgər qeyd edilən dövrdə 20-24 yaşlı qadınlar tərəfindən həyata keçirilmiş abortların sayı qeyd edilən dövrdə təqribən 1,8 dəfə (179,2 faiz) artaraq 4731-dən 8478-zə qalxmışdırsa, 24-29 yaşlı qadınlar arasında bu göstərici 2,2 dəfədən çox (221,4 faiz) artaraq 6104-dən 13514-ə; 30-34 yaşlı qadınlar arasında təqribən 3 dəfə (297,2 faiz) artaraq 4623-dən 13742-yə; 35 və yuxarı yaşlı qadınlar arasında isə 2,6 dəfədən çox (263,6 faiz) artaraq 3306-dan 8715-ə qalxmışdır. Burada diqqətimizi cəlb edən ən başlıca məqamlardan biri də ondan ibarətdir ki, ölkəmizdə qızların nikaha daxil olma yaşı 18 yaş olaraq müəyyənləşdirildiyi halda 2010-cu ildən sonra 15-17 və 18 yaşlı qızlar arasında da abort edənlərə rast gəlinir.

Ümumiyyətlə götürüldükdə, 2005-2021-ci illərdə respublikamızda baş vermiş abortların ən çoxu 25-34 yaşlı qadınların payına düşmüşdür. Müqayisə edilən dövrdə ayrı-ayrı yaş qruplarından olan hər 1000 qadına düşən abortların sayına gəldikdə isə, rəsmi statistikanın məlumatlarına əsasən qeyd edilən dövrdə fertil yaşda olan (15-49 yaş) hər 1000 nəfər qadına düşən abortların sayı 2,3 dəfədən çox artaraq 7,8-dən və 18-ə; o cümlədən 20-24 yaşda olanlar üzrə 2,3 dəfədən çox artaraq 11,5-dən 26,5-ə; 25-29 yaşda olanlar üzrə 1,7 dəfədən çox (173,0 faiz) artaraq 18,9-dan 32,7-yə; 30-34 yaşda olanlar üzrə 2,0 dəfə artaraq 14,5-dən 29,1-ə; 35 və yuxarı yaşda olanlar üzrə isə təqribən 2,4 dəfə (239,4 faiz) artaraq 3,3-dən 7,9-za gəlib çatmışdır [4; 5]. Burada xüsusi olaraq onu da qeyd etmək istərdik ki, 15-19 yaşlı qadınların hər 1000 nəfərinə düşən abortların sayı isə son 16 il ərzində (2005-2021-ci illər) 4,6 dəfədən çox artaraq 1,8-dən 8,3-ə; o cümlədən 2010-2021-ci illərdə isə 3,1 dəfə artaraq 2,7 nəfərdən 8,3 nəfərə; 15-17 yaşlı qadınlar arasında əksinə 6,0 dəfə azalaraq 0,6-dan 0,1-ə düşmüş; 18-19 yaşlı qadınlar arasında isə təqribən 3,7 dəfə (369,1 faiz) artaraq 5,5-dən 20,3-ə qalxmışdır. Əlbəttə, bütün bunlar neqativ hallar olub ölkəmizdə əhalinin doğum səviyyəsinin və nəticədə əhalinin sayının artım surətinə əks təsir göstərən demoqrafik proseslər olub özünün nizamlanmasını gözləyir.

Nəslin kəsilməsi prosesi kimi başa düşülən ölüm hadisəsi isə doğumdan sonra ölkə əhalisinin artıb-azalmasına, cins-yaş quruluşuna və milli tərkibinin dəyişilməsinə təsir edən ikinci mühüm amildir. Hazırda dünyanın əksəriyyət ölkələrində olduğu kimi respublikamızda da əhalinin formalaşmasında onun doğum səviyyəsi ilə yanaşı, ölüm səviyyəsi də özünəməxsus rol oynayır. 2022-ci ildə Azərbaycan Respublikasında əhalinin hər 1000 nəfərinə düşən ölənlərin sayı 6,0 nəfər təşkil edir. Yuxarıdakı 1-ci cədvəlin məlumatlarından isə aydın olur ki, müstəqillik illərində Azərbaycan Respublikasında bu göstərici 6,1 nəfərlə

6,0 nəfər arasında; ayrı-ayrı iqtisadi rayonlarda isə 3,8-7,3 nəfərlə (Abşeron-Xızı); (Şəki-Zaqatala); 4,0 nəfərlə (Abşeron-Xızı) 9,7 nəfər (Lənkəran-Astara) arasında tərəddüd etməklə dəyişmişdir. 1990-2022-ci illəri əhatə edən 32 il ərzində respublikamızda ölən əhalinin sayında və cins-yaş tərkibində baş vermiş dəyişiklikləri özündə əks etdirən 4-cü cədvəlin məlumatlarına nəzər saldıqda aydın olur ki, qeyd edilən dövrdə respublikamızda ölən əhalinin sayı təqribən 1,4 dəfədən çox (142,1 faiz) artaraq 42,8 min nəfərdən 60,8 min nəfərə, o cümlədən ölən kişilərin sayı 1,4 dəfədən çox (144,8 faiz) artaraq 23,0 min nəfərdən 33,2 min nəfərə, ölən qadınların sayı isə təqribən 1,4 dəfə (139,4 faiz) artaraq 19,8 min nəfərdən 27,6 min nəfərə gəlib çatmışdır [4; 5]. Bu dövrdə ən çox ölüm halları 50-59; 60-64; 30-49 və 65 və yuxarı yaşda olan əhali arasında, xüsusilə də kişi cinsindən olanlar arasında büruzə vermişdir. 15-29 yaşda gənclər arasında isə ölənlərin sayı 10,5 faiz, o cümlədən kişilər arasında 21,0 faiz; qadınlar arasında isə 15,4 faiz azalmışdır. Burada diqqəti çəkən əsas məqamlardan biri isə ondan ibarətdir ki, müqayisə edilən dövrdə 0-14 yaşda olan uşaqlar arasında ölənlərin sayı 78,7 faiz; o cümlədən oğlanlar arasında 77,3 faiz; qızlar arasında isə 80,6 faiz azalmışdır. Digər bir əsas məqam isə ondan ibarətdir ki, qeyd edilən dövrdə həmin yaşda ölən uşaqların bütün ölənlər arasındakı xüsusi çəkisinin 13,0 faiz bənd azalaraq 15,8 faizdən 2,8 faizə; o cümlədən oğlanlar üzrə 18,1 faiz bənd azalaraq 19,1 faizdən 1,0 faizə; qızlar üzrə isə 15,7 faiz bənd azalaraq 18,2 faizdən 2,5 faizə düşməsindən ibarətdir. Diqqəti çəkən müsbət məqamlardan biri də ondan ibarətdir ki, müqayisə edilən dövrdə bütünlükdə ölənlər arasında əmək qabiliyyətli yaşda olan (15-64 yaşda) əhalinin xüsusi çəkisi 1,7 faiz bənd azalaraq 38,7 faizdən 36,8 faizə; o cümlədən kişilər üzrə 3,8 faiz bənd azalaraq 48,7 faizdən 44,9 faizə düşmüşdür. Qeyd edilən yaşda ölən qadınların xüsusi çəkisi isə cəmi 0,2 faiz azalaraq 27,8 faizdən 27,2 faizə düşmüşdür. Onu da qeyd etmək lazımdır ki, müqayisə edilən hər iki dövrdə bütün ölən əhalinin əksəriyyəti, yəni 1990-cı ildə 53,7 faizi; 2022-ci ildə isə 54,6 faizi kişilərin payına düşmüşdür. Ölənlər arasında onların xüsusi çəkisi əmək qabiliyyətli yaşda olanlar (15-64 yaşda) arasında 1990-cı ildə 63,6 faizlə (60-64 yaşda) 71,8 faiz (30-44 yaşda) arasında; 2022-ci ildə isə 64,0 faizlə (60-64 yaşda) 73,3 faiz (15-29 yaşda) arasında tərəddüd etməklə dəyişmişdir. Rəsmi statistik məlumatlara əsasən son 22 il ərzində (2000-2022-ci illər) bütün səbəblərdən ölənlərin sayı 130,2 faiz artaraq 46,7 min nəfərdən 60,8 min nəfərə, o cümlədən yenitörəmələrdən ölənlərin sayı 1,6 dəfədən çox (164,7 faiz) artaraq 5,1 min nəfərdən 8,4 min nəfərə; qan dövranı sistemi xəstəliklərindən ölənlərin sayı 131,3 faiz artaraq 26,2 min nəfərdən 34,4 min nəfərə gəlib çatmışdır. Həzm sistemi xəstəliklərindən ölənlərin sayı isə əksinə 11,5 faiz bənd azalaraq 2,6 min nəfərdən 2,3 min nərfərə; tənəffüs sistemi xəstəliklərindən ölənlərin sayı isə 69 faiz bənd azalaraq 4,2 min nəfərdən 1,3 min nəfərə düşmüş; travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin digər nəticələrindən ölənlərin sayı isə 15 faiz bənd artaraq 2,1 min nəfərdən 2,9 min nəfərə yüksəlmişdir [4; 5].

Müqayisə edilən dövrdə bütün səbəblərdən ölənlər arasında yenitörəmələrdən ölənlərin xüsusi çəkisi 10,9 faizlə 13,8 faiz arasında tərəddüd etməklə, qandövranı sistemi xəstəliklərindən ölənlərin xüsusi çəkisi 39,1 faizlə 56,6 faiz arasında; tənəffüs sistemi xəstəliklərindən ölənlərin xüsusi çəkisi 6,3 faizlə 2,1 faiz arasında; həzm sistemi xəstəliklərindən ölənlərin xüsusi çəkisi 5,6 faizlə 3,8 faiz arasında travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin digər nəticələrindən ölənlərin xüsusi çəkisi isə 4,5 faizlə 4,8 faiz arasında tərəddüd etməklə dəyişmişdir. Hazırda respublikamızda ölənlərin 56,6 faizi qandövranı xəstəliklərindən; 13,3 faizi yenitörəmələrdən; 2,1 faizi tənəffüs sistemi xəstəliklərindən; 4,8 faizi travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin digər nəticələrindən; 4,8 faizi həzm sistemi xəstəliklərindən ölənlərin payına düşür. Azərbaycan

Respublikasında, onun iqtisadi rayonlarında, şəhər və kənd yerlərində uşaqlar arasında ölüm vəziyyətinə gəldikdə isə bunu aşağıdakı 5-ci cədvəlin məlumatlarından daha aydın görmək olar. Həmin cədvəlin məlumatlarından aydın olur ki, son 11 il (2010-2021-ci illər) ərzində ölkəmizdə bütövlükdə götürüldükdə hər 1000 nəfər diri doğulana düşən 1 yaşınadək ölənlərin sayı 30,0 faiz azalaraq 11,2 nəfərdən 7,5 nəfərə; o cümlədən şəhər yerlərində 40,7 faiz azalaraq 14,5 nəfərdən 8,6 nəfərə, kənd yerlərində isə 19,8 faiz azalaraq 8,1 nəfərdən 6,6 nəfərə düşmüşdür. Ancaq Naxçıvan MR-da (3,1 dəfə), o cümlədən şəhər yerlərində 2,8 dəfədən çox (285,2 faiz); kənd yerlərində 3,0 dəfə; Dağlıq Şirvanda 1,6 dəfədən çox (162,3 faiz), o cümlədən şəhər yerlərində 1,7 dəfədən çox (175,2 faiz); kənd yerlərində isə 1,5 dəfədən çox (155,9 faiz) və Şərqi-Zəngəzurda 38,9 faiz, o cümlədən kənd yerlərində təqribən 1,7 dəfə (169,8 faiz) artmışdır.

Cədvəl 4.

Azərbaycan Respublikasında cins-yaş tərkibi üzrə ölən əhalinin sayının və quruluşunun dinamikası

Ölən əhalinin yaş quruluşu	1990-cı ildə						Ölən əhali arasında kişilər %-lə	2022-ci ildə						Ölən əhali arasında kişilər %-lə	1990-2022-ci illərdə %-lə		
	Cəmi ölən əhalinin sayı		Onlardan					Cəmi ölən əhalinin sayı		Onlardan					Cəmi ölən əhalinin sayı	Onlardan	
			Kişilər		Qadınlar					Kişilər		Qadınlar				Kişilər	Qadınlar
	Min nəfər	Yekuna nisbətən %-lə	Min nəfər	Yekuna nisbətən %-lə	Min nəfər	Yekuna nisbətən %-lə		Min nəfər	Yekuna nisbətən %-lə	Min nəfər	Yekuna nisbətən %-lə	Min nəfər	Yekuna nisbətən %-lə				
Cəmi ölən əhali	42,8	100	23	106	19,8	100	53,7	60,8	100	33,2	100	27,6	100	54,6	217,1	144,3	139,4
0-14 yaşda	8,0	15,8	4,4	19,1	3,6	18,2	55,0	1,7	2,8	1,0	3,0	0,7	2,5	58,8	21,3	22,7	19,4
15-29 yaşda	1,9	4,4	1,3	5,6	0,6	3,0	68,4	1,5	2,5	1,1	3,3	0,5	1,8	73,3	79,0	84,6	83,3
30-49 yaşda	3,9	9,1	2,8	12,2	1,2	6,1	71,8	5,1	8,4	3,5	10,5	1,5	5,4	68,6	130,8	125,0	125,0
50-59 yaşda	6,4	15,0	4,3	18,7	2,1	10,6	67,2	8,3	13,6	5,5	16,6	2,8	10,2	66,3	138,3	127,9	133,0
60-64 yaşda	4,4	10,2	2,8	12,2	1,6	8,1	63,6	7,5	12,3	4,8	14,5	2,7	9,8	64,0	187,5	171,4	168,8
65 və yuxarı yaşda	18,2	42,5	7,4	32,2	10,7	54	40,6	36,7	60,4	17,3	52,1	419,4	70,3	47,1	199,4	233,8	177,6

Cədvəl: [4; 5] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Burada onu da qeyd etmək lazımdır ki, hər 1000 nəfər diri doğulanlara düşən 1 yaşadək ölən uşaqların sayı 2010-cu ildə respublikamızın ayrı-ayrı iqtisadi rayonlarında 1,6 nəfərlə (Naxçıvan MR) 18,4 nəfər (Bakı şəhəri), o cümlədən şəhər yerlərində 2,7 nəfərlə (Naxçıvan MR) 18,4 nəfər (Bakı şəhəri); kənd yerlərində 1,2 nəfərlə (Naxçıvan MR) 32,6 nəfər (Abşeron-Xızı) arasında tərəddüd etmişdirsə, 2022-ci ildə müvafiq surətdə 4,3 faizlə (Naxçıvan MR) 12,6 faiz (Dağlıq-Şirvan) arasında, o cümlədən şəhər yerlərində 6,3 faizlə (Qarabağ) 17,2 faiz (Dağlıq Şirvan) arasında; kənd yerlərində isə 2,0 faizlə (Naxçıvan MR) 11,7 faiz (Dağlıq Şirvan) arasında tərəddüd etməklə dəyişmişdir. Bu isə o deməkdir ki, əgər 2010-cu ildə hər 1000 nəfər diri doğulanlara düşən 1 yaşınadək ölən uşaqların sayının ən az və ən çox sayda olduğu iqtisadi rayonlar arasındakı fərq ölkə üzrə 16,8 nəfər, o cümlədən şəhər yerlərində 15,7 nəfər; kənd yerlərində 31,4 nəfər təşkil etmişdirsə, 2022-ci ildə müvafiq surətdə 8,3; 10,9 və 9,7 nəfər təşkil etmiş və ya müvafiq qaydada 2,0; 1,4 və 3,2 dəfə azalmışdır [4; 5]. Doğrudur, Azərbaycan Respublikasında hər 1000 diri doğulan uşaqlara düşən1 yaşınadək ölən uşaqların sayı Keçmiş SSRİ-nin Orta Asiya Respublikaları və

Moldovada olduğuna nisbətən xeyli aşağı olsa da (bu göstərici Türkmənistanda – 32,0; Tacikistanda – 26,0; Qırğızıstanda – 15,0; Moldovada – 9 nəfər olmuşdur) Pribaltika ölkələri – Estoniya (1,4 nəfər); Latviya (3,4 nəfər); Litva (2,8 nəfər); habelə, Qərbi Avropanın İsveç (2,4 nəfər); Norveç (1,7 nəfər); Niderland (3,5 nəfər); Almaniya (3,1 nəfər); İngiltərə (4 nəfər) ilə müqayisədə isə xeyli yüksək olmuşdur. Dünya miqyasında bu göstərici 31 nəfər; inkişaf etmiş ölkələrdə 4 nəfər; yüksək gəlirli ölkələrdə 5 nəfər; inkişaf etməkdə olan ölkələrdə isə 34 nəfər təşkil etmişdir [12]. Bu qeyd edilənlər onu deməyə əsas verir ki, respublikamızda hər 1000 nəfər diri doğulana düşən 1 yaşınadək ölən uşaqların sayı bir çox ölkələrlə müqayisədə müsbət xarakter daşısa da bir qrup dövlətlərdəki vəziyyətlə müqayisədə mənfi xarakter daşıyır. Ancaq respublikamızda bu vəziyyətin aradan qaldırılması üçün hər cür şərait olduğundan bu sahədə vəziyyətin daha da yaxşılaşdırılmasına zərurət vardır.

Cədvəl 5.

Azərbaycan Respublikasında, onun iqtisadi rayonlarında, şəhər və kənd yerlərində hər 1000 nəfər diri doğulanlara düşən 1 yaşınadək ölənlərin sayında baş vermiş dəyişikliklər.

İqtisadi rayonlar	2010-cu il			2022-ci il			2010-2022-ci illərdə %		
	Hər 1000 nəfər diri doğulanlara düşən 1 yaşadək ölən uşaqların sayı			Hər 1000 nəfər diri doğulanlara düşən 1 yaşadək ölən uşaqların sayı					
	Cəmi	O cümlədən		Cəmi	O cümlədən		Cəmi	O cümlədən	
		Şəhər yerində	Kənd yerində		Şəhər yerində	Kənd yerində		Şəhər yerində	Kənd yerində
Azərbaycan Respublikasında	11,2	14,5	8,1	7,8	8,3	7,3	69,6	57,2	90,1
Bakı şəhəri	18,4	18,4	-	6,9	6,9	-	85,2	85,2	-
Naxçıvan MR	1,6	2,7	1,2	4,3	8,8	2,0	268,8	326,0	166,7
Abşeron-Xızı	16,9	15,7	32,6	8,9	9,2	5,9	52,7	58,6	66,3
Dağlıq Şirvan	9,6	10,1	9,3	12,6	17,2	10,2	131,3	170,3	109,7
Gəncə-Daşkəsən	12,1	11,7	12,9	9,7	8,5	11,7	80,2	72,6	90,7
Qarabağ	7,9	8,6	7,6	6,8	6,3	7,0	96,2	79,1	92,1
Qazax-Tovuz	8,9	12,3	7,7	8,3	9,3	7,9	86,5	75,6	102,6
Quba-Xaçmaz	9,4	8,8	9,8	5,9	7,5	5,2	62,8	85,2	59,1
Lənkəran-Astara	8,7	11,8	7,7	7,0	8,5	6,5	80,4	72,0	84,4
Mərkəzi Aran	11,2	13,4	9,9	10,3	13,1	8,6	92,0	97,8	86,9
Mil-Muğan	8,0	10,6	7,1	5,8	6,9	5,5	72,5	65,1	77,5
Şəki-Zaqatala	11,4	13,6	10,6	9,8	12,2	9,0	86,0	89,7	84,9
Şərqi-Zəngəzur	7,2	10,4	6,3	7,8	10,6	7,0	108,3	102,0	111,1
Şirvan-Salyan	9,4	10,3	8,7	8,6	7,2	9,6	91,5	69,9	82,8

Cədvəl: [4; 5] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bütünlükdə ölkə əhalisinin, o cümlədən də uşaqlar arasında ölüm səviyyəsində baş vermiş dəyişikliklərin təhlil edilib düzgün qiymətləndirilməsi onların ölüm səbəblərinin aşkara çıxarılıb öyrənilməsini tələb edir. Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi məlumatları əsasında tərtib edilmiş aşağıdakı 6-cı cədvəldən görünür ki, hazırda respublikamızda ölən əhalinin 81,0 faizi 5 növ xəstəliklərin, o cümlədən 56,6 faizi qan dövranı sistemi xəstəliklərindən; 13,8 faizi yenitörəmələrdən; 2,1 faizi tənəffüs sistemi xəstəliklərindən; 3,7 faizi həzm sistemi xəstəliklərindən; 4,8 faizi isə travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin digər nəticələrindən ölənlərin payına düşür. Burada diqqəti çəkən əsas məqamlardan biri ondan ibarətdir ki, müqayisə edilən dövrdə bütün səbəblərdən ölən əhalinin sayının 130,2 faiz artmasına rəğmən qan dövranı sistemi xəstəliklərindən ölənlərin sayı 131,4 faiz; yenitörəmələrdən ölən əhalinin sayı 164,7 faiz artmış; həzm sistemi xəstəliklərindən ölən əhalinin sayı 13,8 faiz azalmış; travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin digər nəticələrindən ölən əhalinin sayı 139,0 faiz artmış; tənəffüs sistemi

xəstəliklərindən ölən əhalinin sayı isə 69,6 faiz azalmışdır. İkinci məqam isə ondan ibarətdir ki, bütün xəstəliklərdən ölən əhali arasında tənəffüs sistemi və həzm sistemi xəstəliklərindən ölənlərin xüsusi çəkisi azaldığı halda travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin digər nəticələrindən ölənlərin; yenitörəmələrdən və qan dövranı sistemi xəstəliklərindən ölən əhalinin xüsusi çəkisi artmışdır. Bu isə o deməkdir ki, hazırda ölkəmizdə bütün səbəblərdən ölən əhalinin əksəriyyəti, yəni 70,4 faizi yenitörəmələrdən və qan dövrü sistemi xəstəliklərindən ölənlərin payına düşür və bu xəstəliklərdən ölənlərin sayı durmadan artmaqda davam edir.

Cədvəl 6.

Azərbaycan Respublikasında əsas səbəblərdən ölənlərin sayının dinamikası və quruluşunda baş vermiş dəyişikliklər

	Bütün xəstəliklərdən ölənlər		Onlardan									
			Yenitörəmələrdən ölənlər		Qan dövranı sistemi xəstəliklərindən ölənlər		Tənəffüs sistemi xəstəliklərindən ölənlər		Həzm sistemi xəstəliklərindən ölənlər		Travmalar, zəhərlənmələr və xarici səbəblərin təsirinin digər nəticələrindən ölənlər	
	Nəfər	Yekuna nisbətən %	Nəfər	Yekuna nisbətən %	Nəfər	Yekuna nisbətən %-	Nəfər	Yekuna nisbətən %	Nəfər	Yekuna nisbətən %	Nəfər	Yekuna nisbətən %
2000	46701	100	5081	7,6	26205	39,1	4207	9,0	2624	5,6	2097	4,5
2005	51962	100	6381	12,3	29392	56,6	3069	5,9	3120	6,0	2698	5,1
2010	53580	100	6633	12,4	32554	60,8	2377	5,4	3137	5,8	2529	4,7
2015	54697	100	7278	13,3	32825	60,0	1712	3,1	2856	5,2	2646	4,9
2019	55916	100	8819	15,8	32471	58,5	1854	4,8	2687	4,8	2789	5,0
2020	75647	100	9879	13,1	41228	54,5	3149	11,9	2520	3,3	6060	8,0
2022	60810	100	8369	13,8	34423	56,6	1280	2,1	2261	3,7	2914	4,8
2000-2022-ci illər %	130,2		164,7	+6,2	131,4	+17,5	30,4	-6,9	86,2	-1,9	139,0	+0,3

Cədvəl: [4; 5] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Respublikamızda, onun şəhər və kənd yerlərində hər 1000 nəfər diri doğulanlara düşən yaşadək ölənlərin ölüm səbəblərinə gəldikdə isə bunu aşağıdakı 7-ci cədvəlin məlumatlarından daha aydın görmək olar. Həmin cədvəlin məlumatlarından görünür ki, 2000-2021-ci illərdə bütün səbəblərdən ölən 1 yaşınadək ölən uşaqların sayı təqribən 2,0 dəfə azalaraq 1896 nəfərdən 959 nəfərə, o cümlədən bəzi infeksion və parazitar xəstəliklərdən ölənlərin sayı 4,4 dəfə azalaraq 197 nəfərdən 46 nəfərə; tənəffüs sistemi xəstəliklərindən ölənlərin sayı 8,1 dəfə azalaraq 979 nəfərdən 121 nəfərə; anadangəlmə anomaliyalar (inkişaf qüsurları) deformasiyalar və xromosom pozuntularından ölənlərin sayı 4,2 faiz azalaraq 95 nəfərdən 91 nəfərə düşmüş; perinatal dövr üzrə meydana çıxan bəzi hallardan ölənlərin sayı 113,6 faiz artaraq 345 nəfərdən 392 nəfərə qalxmış; travmalar, zəhərlənmələr və xarici təsirlərin digər nəticələrindən ölənlərin sayı isə 5,3 dəfə azalaraq 32 nəfərdən 6 nəfərə düşmüşdür. Burada onu da qeyd etmək lazımdır ki, hazırda respublika əhalisi, xüsusilə də uşaqlar arasında ölüm səviyyəsinin nisbətən yüksək olaraq qalması **bir tərəfdən** burada hələlik kifayət qədər yüksək ixtisaslı tibbi kadrların olmaması, onların isə bir qisminin xarici ölkələrdə işləməyə çıxıb getmələri ilə, **digər tərəfdən isə bir sıra rayon və şəhərlərdə** tibbi müəssisələrdə lazımi maddi-texniki bazanın olmaması; onların bəzilərində hələ də antisanitariya şəraitinin mövcud olması; bir sıra hallarda həkimlər arasında ələbaxımlıq hallarının mövcud olması; əhalinin bir qisminin köçkün və qaçqın vəziyyətdə yaşaması və onların lazımi səviyyədə yüksək keyfiyyətli qida məhsulları qəbul etməmələri və sair bu kimi amillərlə bağlıdır.

Ölkəmizdə əhaliyə səhiyyə xidmətinin müasir durumuna gəldikdə isə bunu son 15 il ərzində (2006-2022-ci illər) respublikamızda səhiyyənin əsas göstəricilərində baş vermiş dəyişikliklərdən də aydın görmək olar (8-ci cədvələ bax). 8-ci cədvəlin məlumatlarından görünür ki, son 16 il ərzində Azərbaycan Respublikasında bütün ixtisaslardan olan həkimlərin sayının cüzi artımı istisna edilməklə (cəmi 4,6 faiz) səhiyyənin bütün başqa əsas göstəricilərinin səviyyəsi əhəmiyyətli dərəcədə azalmışdır. Bu azalma əhalinin hər 10.000 nəfərinə düşən həkimlərin sayı üzrə - 13,2 faiz; orta tibb işçilərinin sayı üzrə 12,3 faiz; xəstəxana çarpayılarının sayı üzrə 43,3 faiz; xəstə uşaqların çarpayıları üzrə 53,0 faiz; hamilə və zahı qadınların çarpayıları üzrə 63,3 faiz təşkil etmişdir.

Cədvəl 7.

Azərbaycan Respublikasında əsas səbəblərdən 1 yaşadək ölən uşaqların sayının və quruluşunun dinamikası

	Bütün səbəblərdən 1 yaşadək ölən uşaqların sayı		Onlardan									
			Bəzi infeksion və parazitar xəstəliklərdən		**Tənəffüs sistemi xəstəliklərindən**		**Perinatal dövr üzrə meydana çıxan bəzi hallardan**		**Anadangəlmə anomaliyalar (inkişaf qüsurları) deforma-siyalar və xromosom pozuntulardan**		**Travmalar, zəhərlənmələr və xarici təsirlərin digər nəticələrindən**	
	Nəfər	**Yekuna nisbətən %**	**Nəfər**	**Yekuna nisbətən %**	**Nəfər**	**Yekuna nisbətən %**	**Nəfər**	**Yekuna nisbətən %**	**Nəfər**	**Yekuna nisbətən %**	**Nəfər**	**Yekuna nisbətən %**
2000	1896	100,0	197	10,4	979	51,6	345	18,2	95	5,0	32	1,7
2005	1580	100,0	123	7,8	809	51,2	301	19,1	138	8,7	29	1,9
2010	1843	100,0	113	6,1	581	31,5	367	19,9	327	17,7	37	2,0
2015	2033	100,0	65	3,2	221	10,9	1233	60,0	198	9,8	17	0,8
2019	1557	100,0	38	2,4	153	-	1002	64,4	149	9,5	7	0,4
2020	1242	100,0	31	2,5	104	8,1	933	75,1	62	5,0	5	0,4
2022	959	100,0	46	4,8	121	12,6	392	40,9	91	9,5	6	0,6
2000-2022-ci illərdə %	50,6	-	23,4	-5,6	12,4	-39,0	113,6	+22,7	95,8	+4,5	18,8	-1,1

Cədvəl: [4; 5] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bu illər ərzində xəstəxana müəssisələrinin sayı 53,1 faiz; xəstəxana çarpayılarının sayı 43,3 faiz; qadın məsləhətxanalarının və qadın məsləhətxanası olan müəssisələrin sayı 67,0 faiz; uşaq poliklinikaları və uşaq şöbəsi olan müəssisələrin sayı isə 61,8 faiz azalmışdır. Təəssüf doğuran haldır ki, hazırda respublikamızda çalışan 31958 nəfər həkimin 25421 nəfəri və ya 80,3 faizi cəmi 13 ixtisas üzrə məşğul olan həkimlərin payına düşür. Bunlar terapevtlər; cərrahlar; ginekoloqlar; pediatrlar; gigiyena-epidemoloq; oftalmoloqlar; nevropatoloqlar; psixiatrlar; narkoloqlar; fiziatorlar; şüa diaqnostikası üzrə həkimlər, stomatoloq və diş həkimləridirlər [4; 5]. Onların da sayı kifayət qədər deyildir. 2021-ci ildə əhalinin hər 10.000 nəfərinə düşən terapevtlərin sayı – 8,1 nəfər; cərrahların sayı – 3,2 nəfər; ginekoloqların sayı – 3,5 nəfər; pediatrların sayı 12,3 nəfər; oftalmoloqların sayı cəmi 0,9 nəfər; nevropatoloqların sayı – 0,9 nəfər; narkoloqların sayı – 0,1 nəfər və sair təşkil etmişdir [4; 5].

Cədvəl 8.

Azərbaycan Respublikasında səhiyyənin əsas inkişaf göstəricilərinin dinamikası

	2006	2011	2016	2020	2021	2022	2006-2022-ci illərdə %
Bütün ixtisaslardan olan həkimlərin sayı (min nəfər)	30,6	33,1	32,5	31,8	31,8	32,0	104,6
Əhalinin hər 10,000 nəfərinə düşən bütün ixtisaslardan olan həkimlərin sayı (nəfər)	36,3	36,8	33,9	32,0	31,8	31,8	86,8
Orta tibb işçilərinin sayı (min nəfər)	60,8	60,1	54,9	55,7	54,8	53,3	87,7
Əhalinin hər 10,000 nəfərinə düşən orta tibb işçilərinin sayı (nəfər)	72,1	66,8	57,3	55,9	54,8	53,1	73,6
Xəstəxana müəssisələrinin sayı (vahid)	729	516	559	570	518	342	46,9
Onlardan: Xəstəxana çarpayılarının sayı (min vahid)	68,9	45,8	44,9	44,3	44,5	39,1	56,7
Əhalinin hər 10,000 nəfərinə düşən xəstəxana çarpayılarının sayı (vahid)	81,7	50,9	46,9	44,5	44,5	38,9	47,6
Xəstə uşaqlar üçün çarpayıların sayı	11,7	7,0	6,1	6,0	5,5	4,3	36,7
Hamilə və zahı qadınlar üçün çarpayıların sayı	7,4	4,6	4,6	4,4	4,2	3,4	46,0
Əhaliyə ambulatoriya-poliklinika yardımı göstərən müəssisələrin sayı (vahid)	1595	1688	1750	1726	1723	1663	104,3
Onlardan: qadın məsləhətxanalarının və qadın məsləhətxanası olan müəssisələrin sayı	321	214	137	131	118	106	33,0
Uşaq poliklinikaları və uşaq şöbəsi olan tibb müəssisələrinin sayı	602	258	250	248	248	230	38,2
Ambulator-poliklinika müəssisələrinin gücü (bir növbədə gəlişlərin sayı) – min nəfər	104,1	102,1	107,0	106,5	105,1	106,9	102,4
Əhalinin hər 10.000 nəfərinə	123,4	113,6	111,6	107,0	105,1	106,6	86,4
Körpələr evlərinin sayı	4	4	4	4	4	4	-
Onlarda uşaqların sayı	156	143	179	121	82	215	137,8

Cədvəl: [4; 5] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qeyd edilən xəstəliklər üzrə hər 10.000 nəfər əhaliyə düşən çarpayıların sayı isə cəmi 38,9 ədəd təşkil etməklə bu göstərici terapevtik üzrə - 7,4; cərrahi üzrə - 7,3; onkoloji üzrə - 1,8; ginekoloji üzrə - 1,6; vərəm üzrə - 1,5; infeksion üzrə - 2,9; oftalmoloji üzrə - 0,4; psixi üzrə - 4,0; narkoloji üzrə - 0,5 və sair olmuşdur [4; 5]. Bütün bunlara rəğmən respublikanın tibb sahəsi üzrə dövlət ali təhsil müəssisələrində hazırlanan mütəxəssislərin sayı axır 16 il ərzində (2005-2021-ci illər) 115,7 faiz artaraq 1334 nəfərdən 1543 nəfərə; o cümlədən müalicə işi üzrə mütəxəssislərin sayı 143,5 faiz artaraq 678 nəfərdən 973-ə; stomatologiya üzrə mütəxəssislərin sayı 115,3 faiz artaraq 176 nəfərdən 203 nəfərə, əczaçılıq üzrə mütəxəssislərin sayı 2,6 dəfə artaraq 90 nəfərdən 231 nəfərə qalxmasına rəğmən pediatriya üzrə mütəxəssislərin sayı 9,6 dəfə azalaraq 287 nəfərdən 30 nəfərə; tibbi profilaktika üzrə mütəxəssislərin sayı isə 2,1 dəfədən çox azalaraq 75 nəfərdən 35 nəfərə düşmüşdür [4; 5]. Qeyd edilən dövrdə tibb ixtisası üzrə dövlət orta ixtisas təhsil müəssisələrində hazırlanmış bütün mütəxəssislərin sayı 16,2 faiz azalaraq 2662 nəfərdən 2230 nəfərə; o cümlədən müalicə işi üzrə mütəxəssislərin sayı təqribən 1,9 dəfə (189,2 faiz) azalaraq 717 nəfərdən 379 nəfərə; tibbi profilaktika üzrə mütəxəssislərin sayı 10,2 faiz azalaraq 87 nəfərdən 78 nəfərə; ortopedik stomatologiya üzrə mütəxəssislərin sayı 2,2 dəfə azalaraq 203 nəfərdən 93 nəfərə və sair düşmüşdür [4; 5]. Bizə belə gəlir ki, bu sahədə hazırlanmış kadrların bir hissəsi öz peşə sahəsində işləməyə həvəs göstərməyib başqa sahələrdə işləməyə üstünlük vermişlər və yaxud ölkəni tərk edib başqa ölkələrə çıxıb getmişlər. Burada onu da qeyd etmək lazımdır ki, hazırda səhiyyə və əhaliyə sosial xidmətlərin göstərilməsi sahəsi iqtisadi fəaliyyət növləri arasında ən aşağı əmək haqqı verilən sahələrdən biridir. Belə ki, əgər 2022-ci ildə ölkə iqtisadiyyatında muzdla işləyənlərin orta aylıq nominal əmək haqqının məbləği 840 manat təşkil etmişdirsə, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sahəsində 695 manat və ya birinci

göstəriciyə nisbətən 21,0 faiz az olmuşdur. Nəzərə alsaq ki, ölkə əhalisinin sağlamlığı səhiyyənin inkişafından çox asılıdır və bu sahədə çalışanların tam əksəriyyətini, yəni 77,3 faizini qadınlar təşkil edir [4; 5].

Respublikamızda əhalinin normal qaydada təkrar istehsalı prosesini həyata keçirmək üçün həmin sahənin inkişafına qayğı və diqqət daha da artırılmalı və burada məşğul olanların əmək haqlarının artırılmasına xüsusi diqqət yetirilməlidir. Ölkə əhalisinin sayına və onun cins-yaş quruluşuna təsir edən ən başlıca amillər arasında əhalinin nikah və boşanmalarında baş verən dəyişikliklərin isə xüsusi yeri vardır. Başqa sözlə desək, **əhalinin nikah və boşanma səviyyəsi** hazırda ölkəmizdə yaranmış demoqrafik vəziyyətə **təsir edən ən başlıca amillərdən biridir. Nikah isə ailənin yaranması və uşaqların doğulmasının ilkin şərtidir.** Ölkədə qəbul edilmiş qayda və qanunlara uyğun olaraq nikahın bağlanıb-bağlanmamasından asılı olmayaraq ərlə-arvad arasında daha çox həqiqi və səmimi münasibətlərin mövcud olması da mühüm şərtdir. Bununla bərabər nikahın hüquqi forması da cəmiyyətin diqqətindən kənarda qalmır. Buna səbəb nikahdan kənar doğum hadisəsinin də mövcud olmasıdır. Bizim ölkəmizdə həqiqi nikah dedikdə nikahın ər və arvad tərəfindən VADQ orqanlarında rəsmən bağlanması başa düşülür. Çünki ər və arvad arasında hüquqi münasibət onların nikahlarının VADQ orqanlarında qeyd etdirilməsi ilə müəyyən edilir. **Ailənin qurulması nikahın bağlanması, dağılması isə boşanma ilə bağlıdır.** Buna görə də mühüm demoqrafik hadisə kimi **nikah və boşanmaların** artıb-azalması nəslin davam etdirilməsi, əhalinin təbii təkrar istehsalı və insan potensialının formalaşması və bütünlükdə götürüldükdə ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsi baxımından böyük maraq doğurur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "15" noyabr 2011-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında kişi və qadınlar üçün nikaha daxil olmaq yaşı 18 yaş olaraq müəyyənləşdirilərək qanuniləşdirilmişdir.

Müstəqillik illərində (1991-2022-ci illərdə) Azərbaycan respublikasında **nikah və boşanmaların vəziyyətində** baş vermiş dəyişiklikləri aşağıdakı 9-cu cədvəlin məlumatlarından aydın görmək olar. Həmin cədvəldən görünür ki, qeyd edilən dövrdə respublikamızda nikahların sayı 156,4 faiz artaraq 39611-dən 67939-za; boşanmaların sayı isə təqribən 2,9 dəfə artaraq 5478-dən 15983-ə çatmışdır. Bu göstəricilər şəhər və kənd yerlərində bir qədər fərqli olmuşdur. Belə ki, müqayisə edilən dövrdə şəhər yerlərində nikahların sayı 1,6 dəfədən çox (165,0 faiz) artaraq 19994-dən 32985-ə; boşanmaların sayı isə təqribən 2,4 dəfədən çox (245,0 faiz) artaraq 10612-yə qalxmışdırsa; kənd yerlərində nikahların sayı 147,6 faiz artaraq 19617-dən 28954-ə; boşanmaların sayı isə təqribən 4,7 dəfə (468,7 faiz) artaraq 19617-dən 28951-ə gəlib çatmışdır. Ancaq, əlbəttə, nikahların və boşanmaların vəziyyətini onların ümumi sayı ilə deyil əhalinin hər 1000 nəfərinə düşən sayı ilə müəyyən etmək daha düzgün olardı. 9-cu cədvəlin məlumatlarından aydın olur ki, bu sahədə də vəziyyət ürəkaçan deyildir.

Cədvəl 9.

Müstəqillik dövründə Azərbaycan Respublikasında, onun şəhər və kənd yerlərində əhalinin nikah və boşanmasında baş vermiş dəyişikliklər

	Azərbaycan Respublikasında				Şəhər yerlərində				Kənd yerlərində			
	Nikahların sayı	Boşanmaların sayı	Əhalinin hər 1000 nəfərinə		Nikahların sayı	Boşanmaların sayı	Əhalinin hər 1000 nəfərinə		Nikahların sayı	Boşanmaların sayı	Əhalinin hər 1000 nəfərinə	
			Nikahların sayı	Boşanmaların sayı			Nikahların sayı	Boşanmaların sayı			Nikahların sayı	Boşanmaların sayı
2000	39611	5478	5,0	0,7	19994	4332	4,9	1,1	19617	1146	5,0	0,3
2003	56091	6671	6,8	0,8	26935	5555	6,4	1,3	29156	1116	7,4	0,3
2005	71643	8895	8,5	1,1	35593	6864	8,1	1,6	36050	2031	9,1	0,5
2010	79772	9061	8,9	1,0	41502	6753	8,8	1,4	37580	2308	9,0	0,6
2015	68773	12764	7,2	1,3	36623	8658	7,2	1,8	32150	4106	7,2	0,9
2019	63869	17148	6,4	1,7	32984	11210	6,3	2,1	30885	5938	6,6	1,3
2020	35348	14628	3,5	1,5	18314	9531	3,5	1,8	17034	5097	3,6	1,1
2021	56314	17191	5,6	1,7	30971	11226	5,8	2,1	25343	5965	5,4	1,3
2022	67939	15983	6,1	1,6	32985	10612	6,0	1,9	28954	5371	6,3	1,2
2000-2022-ci illərdə %	156,4	291,8	122,0	228,6	165,0	245,0	122,4	172,7	147,6	468,7	126,0	400,0

Cədvəl: [4; 5] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Müqayisə edilən dövrdə (2000-2022-ci illərdə) Respublika üzrə əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 122,0 faiz artaraq 5,0-dən 6,0-ya çatdığı halda, boşanmaların sayı təqribən 2,3 dəfə (288,6 faiz) artaraq 0,7-dən 1,6-ya çatmışdır. Bu göstəricilərin səviyyəsi şəhər və kənd yerlərində həm ümumi respublika səviyyəsinə və həm də bir-birlərinə olan münasibətdə xeyli fərqli olmuşdur. Belə ki, əgər şəhər yerlərində əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 122,4 faiz artaraq 4,9-dan 6,0-ya; kənd yerlərində isə 126,0 faiz artaraq 5-dən 6,3-ə çatmışdırsa; boşanmaların sayı şəhər yerlərində 1,7 dəfədən çox (172,7 faiz) artaraq 1,1-dən 1,9-za; kənd yerlərində isə 4,0 dəfə artaraq 0,3-dən 1,2-yə yüksəlmişdir. Bu göstəricilər ölkəmizin ayrı-ayrı iqtisadi rayonlarında bir-birindən fərqli olmaqla dəyişdiyi də diqqətimizi cəlb edir. Bunu son 11 ilin (20102021-ci illər) statistik məlumatlarının təhlilindən də aydın görmək olar. 10-cu cədvəlin məlumatlarından görünür ki, müqayisə edilən dövrdə respublikamızın bütün iqtisadi rayonlarında nikah və boşanmaların ümumi sayında əhəmiyyətli dəyişikliklər baş vermişdir. Belə ki, müqayisə edilən dövrdə respublikanın ayrı-ayrı iqtisadi rayonlarında Qarabağ iqtisadi rayonu istisna olunmaqla (burada nikahların ümumi sayı 108,8 faiz artmışdır) nikahların ümumi sayı müqayisə edilən dövrdə bu və ya digər dərəcədə azaldığı halda boşanmışların sayı bütün iqtisadi rayonlarda 150,4 faizlə (Bakı şəhəri) 364,7 faiz arasında (Mərkəzi Aran) tərəddüd etməklə artmışdır. Əhalinin hər 1000 nəfərinə düşən nikah və boşanmaların sayına gəldikdə burada başqa mənzərənin şahidi oluruq. Belə ki, 10-cu cədvəlin məlumatlarından aydın olur ki, müqayisə edilən dövrdə Mil-Muğan iqtisadi rayonu istisna olunmaqla qalan bütün iqtisadi rayonlarda əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı bu və ya digər dərəcədə azaldığı halda, boşanmaların sayı ayrı-ayrı iqtisadi rayonlarda 133,3 faizlə (Şərqi Zəngəzur) 300 faiz arasında (Lənkəran-Astara) tərəddüd etməklə artıb çoxalmışdır. Bu göstəricilərdən aydın olur ki, qeyd edilən dövrdə respublikamızda əhalinin hər 1000 nəfərinə düşən **nikahların ən yüksək səviyyəsi** Şəki-Zaqatala (6,2 nikah); Dağlıq Şirvan (6,0 nikah); Naxçıvan MR və Quba-Xaçmaz (5,8 nikah)

iqtisadi rayonlarında; **ən aşağı səviyyəsi** Abşeron-Xızı (3,7 nikah); Lənkəran-Astara (3,9 nikah) və Mərkəzi Aran (4,9 nikah) iqtisadi rayonlarında; **boşanmaların ən yüksək səviyyəsi** isə Bakı şəhəri (2,3 boşanma); Şərqi-Zəngəzur və Mərkəzi Aran (2 boşanma); Gəncə-Daşkəsən və Abşeron-Xızı (1,8 nikah) iqtisadi rayonlarında; **ən aşağı səviyyəsi isə** Mil-Muğan, Lənkəran-Astara və Dağlıq-Şirvan (1,2 boşanma) iqtisadi rayonlarında qeydə alınmışdır. Burada onu da qeyd etmək lazımdır ki, rəsmi statistik məlumatlara əsasən 2022-ci ildə respublikamızda nikaha daxil olmuş 61939 bəyin 269 nəfəri və ya 0,4 faizi 18-19 yaşda; 10800 nəfəri və ya 17,4 faizi 20-24 yaşda; 27146 nəfəri və ya 43,8 faizi 25-29 yaşda; 14356 nəfəri və ya 23,2 faizi 30-34 yaşda; 4316 nəfəri və ya 7,0 faizi 35-39 yaşda; 1879 nəfəri və ya 3,0 faizi 40-44 yaşda; 1049 nəfəri və ya 1,7 faizi 45-49 yaşda; 757 nəfəri və ya 1,2 faizi 50-54 yaşda; 529 nəfəri və ya 0,8 faizi 55-59 yaşda; 838 nəfəri və ya 1,5 faizi isə 60 və yuxarı yaşda olanların payına düşmüşdür. Eyni sayda olan gəlinlərin 270 nəfəri və ya 0,4 faizi 13594 nəfəri və ya 21,9 faizi 18-19 yaşda; 24326 nəfəri və ya 39,3 faizi 20-24 yaşda; 12669 nəfəri və ya 20,4 faizi; 5080 nəfəri və ya 8,2 faizi; 2620 nəfəri və ya 4,2 faizi; 1371 nəfəri və ya 2,2 faizi; 832 nəfəri və ya 1,3 faizi; 532 nəfəri və ya 0,9 faizi; 339 nəfəri və ya 0,5 faizi; 306 nəfəri və ya 306 nəfəri və ya 0,5 faizi isə 60 və yuxarı yaşda olanların payına düşmüşdür.

Bütünlükdə götürüldükdə isə 2022-ci ildə ölkəmizdə **boşanan kişilərin** 61,1 faizi; **boşanan qadınların** 74,0 faizi 18-39 yaşında olanların payına düşmüşdür. **Boşanmaların ən geniş vüsət aldığı son 12 il ərzində** (2010-2022-ci illər) ölkəmizdəki boşanma hallarının ümumi sayı 174,9 min təşkil etmişdir ki, onların da öhdəsindəki uşaqların ümumi sayı 135,8 min nəfərə bərabər olmuşdur. 2022-ci ildə respublikamızda boşanan qadınların 59,8 faizini uşağı olanlar, o cümlədən 26, faizini 1 uşağı olanlar, 33,8 faizini isə iki və daha çox uşağı olanlar təşkil etmişlər. Burada diqqəti çəkən əsas məqamlardan biri də ondan ibarətdir ki, 2022-ci ildə boşanan kişi və qadınların 31,0 faizi 5 ilə qədər, 28 faizi 5-9 ilə qədər; 30,0 faizi 10-19 ilə qədər; 11,1 faizi isə 20 il və yuxarı müddətdə ailə həyatı yaşamış insanların payına düşmüşdür. Əhalinin siyahıyaalınması məlumatlarına əsasən əgər 1999-cu ildə 16 və yuxarı yaşda olan əhalinin 65,0 faizi, o cümlədən kişilərin 62,3, qadınların isə 77,8 faizini nikahda olanlar, müvafiq surətdə 26,2; 30,3 və 22,6 faizini heç vaxt nikahda olmayanlar; 1,5; 0,7 və 2,2 faizini boşananlar; 7,3; 2,3 və 1,2 faizini dullar təşkil etmişdirsə; 2019-cu ildə qeyd edilən yaşda olan bütün əhalinin 60,6; kişilərin 61,2; qadınların 60,2 faizini nikahda olanlar; müvafiq surətdə 29,5; 34,1 və 25, faizini heç vaxt nikahda olmayanlar; 2,7; 1,8 və 3,6 faizini boşananlar; 7,1; 2,8 və 11.2 faizini isə dullar təşkil etmişdir [4; 5]. Bu statistik məlumatlardan aydın olur ki, son 20 il (1999-2019-cu illər) ərzində respublikamızda 16 və yuxarı yaşda olan əhali arasında həm heç vaxt nikahda olmayanların və həm də dulların xüsusi çəkisi xeyli yüksəlmişdir ki, bu da mənfi demoqrafik hadisə kimi qiymətləndirilib nəzərə alınmasıdır. Diqqətimizi çəkən digər neqativ hallardan biri də ondan ibarətdir ki, respublikamızda qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı və onların diri doğulan uşaqlar arasındakı xüsusi çəkisi də durmadan artmaqda davam edir. Belə ki, 2010-cu ildə diri doğulmuş 165,6 min nəfər uşağın 25,4 min nəfəri və ya 15,3 faizi; 2015-ci ildə 166,2 min nəfər diri doğulmuş uşaqların 24,0 min nəfəri və ya 14,5 faizi; 2022-ci ildə 122,8 min nəfər diri doğulan uşaqların isə 18,8 min nəfəri və ya 15,3 faizi rəsmi qeydə alınmamış nikahda olan qadınların payına düşmüşdür [4; 5].

Ölkəmizdə nikah və boşanmalar sahəsində bu vəziyyətin yaranması müxtəlif səbəblərlə, o cümlədən yerlərdə mövcud qanunvericilik aktlarının tələblərinə etinasızlıq göstərilməsi, bir-çox valideynlərin qızlarını təhsildən ayırıb vaxtından əvvəl ərə vermələri və bu zaman onların VADQ orqanlarına deyil, din xadimlərinə müraciət

edərək kəbin kəsdirmələri, bəzi qızların isə, hətta, kəbin belə kəsilmədən ərə verilməsi və sairlə bağlıdır.

Bütünlükdə götürüldükdə demoqrafik inkişaf sahəsində, o cümlədən də nikah və boşanmalarda yaranmış vəziyyət ayrılıqda götürülən bir və ya bir neçə amillə deyil, kompleks sosial-iqtisadi, demoqrafik, sosial-psixoloji, fizioloji, mədəni, mənəvi-əxlaqi və sair amillərlə bağlıdır və bütün bunlar ilk növbədə hər bir ailədə özünü büruzə verir. Ona görə də ailənin öyrənilməsinə, bu sahədə bir çox elm sahəsindən olan nümayəndələrin iştirakı ilə **kompleks xarakterli tədqiqatlar aparılmasına;** ailənin müqəddəsliyinin geniş təbliğ edilməsinə, bu işə ibtidai təhsil məktəblərindən başlanılmasına; ailənin sevgi-məhəbbət üzərində qurulmasının zəruriliyinin təbliğinə geniş yer verilməli, ailənin möhkəm təməllər üzərində qurulmasına köməklik göstərilməsinə xüsusi qayğı və diqqətlə yanaşılması bütünlükdə cəmiyyətin, hər bir vətəndaşın, **cəmiyyət üzvünün və dövlətin əsas vəzifəsi sayılır.** Ailə siyasəti hazırda ölkəmizdə uğurla həyata keçirilməkdə olan dövlətin sosial siyasətinin mühüm prioritet istiqamətlərindən birini təşkil edir. **Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ailə dəyərlərinə yüksək qiymət verərək** "22" aprel 2009-cu ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin iclasındakı çıxışında **demişdir ki: "Mən məsuliyyətlə deyə bilərəm ki, bizim xalq üçün ailə dəyərləri doğmadır və ürəyə yaxındır. Həqiqətən də bu, bizim milli dəyərlərimizdir... Bizim ölkənin inkişafında, müstəqilliyimizin daha da möhkəmləndirilməsi hədəflərində və milli dəyərlərin tam oturuşması üçün ailə dəyərlərinin üstün tutulması mübahisəsizdir** [9]. Ancaq çox təəssüflər olsun ki, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən 2011-ci il sentyabr ayının 19-29-da ölkə ərazisində keçirilmiş **"Azərbaycanda boşanma hallarının səbəblərinin öyrənilməsinə dair"** statistik müşahidə materiallarına əsasən müəyyən edilmişdir ki, ölkəmizdə 18 yaşadək ərə verilmiş qızların **37,4 faizi öz arzusu ilə; 25,9 faizi valideynlərinin təzyiqi ilə; 10,7 faizi ailənin maddi vəziyyətinin çətin olması ilə; 7,9 faizi ərinin maddi durumunun yaxşı olması ilə; 6,4 faizi isə qaçırılması ilə əlaqədar olaraq nikaha daxil olmuşlar** [4; 5].

Bu neqativ halların qarşısının alınması hər şeydən əvvəl ailənin bir sosial təsisat kimi möhkəmləndirilməsini tələb edir. Bir çox görkəmli dünya demoqraflarının da haqlı olaraq düşündüyü kimi, bu problemin həll edilməsi çox dərin və geniş tədqiqatlar aparılmasını tələb edir. O ki, qaldı konkret olaraq boşanmaların surətlə artmasının qarşısının alınmasına burada qəti resept vermək çətindir. Bəzi müəlliflər bu məsələnin **həllinə birtərəfli yanaşaraq boşanmanın** baş verməsini əsas etibarilə ər-arvadın xasiyyətlərinin uyğun gəlməməsi, evlənənlərin ər-arvad, ana və ata rolunu yerinə yetirməyə hazır olmamaları, xəyanət, hissiyyatın itirilməsi, sərxoşluq, **düşünmədən, götür-qoy etmədən tələsik evlənmək kimi səbəblərlə izah edərək, onun sosial, iqtisadi, tibbi, psixoloji, etnik və sair bu kimi əsl səbəblərindən yan keçirirlər.** Buna görə də hazırda ölkə demoqrafları, sosioloqları, psixoloqları, iqtisadçı və sair elm sahələrində məşğul olan digər alimlərimizin diqqəti məhz həmin amillərin kompleks şəkildə tədqiq edilib öyrənilməsinə, milli və **regional xüsusiyyətlər** nəzərə alınmaqla boşanma və ayrılma hallarının sürətlənməsinin qarşısının alınması üçün zəruri olan tədbirlər sisteminin işlənib hazırlanması və həyata keçirilməsinə yönəldilməlidirlər. Bununla yanaşı, gələcəkdə nəinki hər bir ailədə, həm də orta və ali məktəblərdə gənclərin ailə qurmağa hazırlanması, onlarda bunun üçün mənəvi-psixoloji hazırlıq yaradılması, ailə, ər-arvadlıq, ata-analıq, qardaş-bacılıq funksiyalarının yerinə yetirilməsinin nə qədər şərəfli və müqəddəs olduğunu, boşanmanın və bunun nəticəsində atasız və yaxud da anasız qalmağın, habelə tək uşaqlılığın, qardaş-bacısızlığın mənfi cəhətləri, cəmiyyətdə ailənin və uşaqların nə kimi böyük rola malik

olması geniş təbliğ edilib gənclərin şüuruna aşılanması da bu tədbirlər sisteminə daxil edilməli və mühüm bir vəzifə kimi qarşıda durmalıdır.

Cədvəl 10.

Azərbaycan Respublikasında və onun iqtisadi rayonlarında nikah və boşanmaların sayında və səviyyəsində baş vermiş dəyişikliklərin dinamikası

	2010				2021				2010-2021-ci illərdə %			
	nikahlar	boşanmalar	əhalinin hər 1000 nəfərinə		nikahlar	boşanmalar	əhalinin hər 1000 nəfərinə		Nikah və boşanmaların ümumi sayı		əhalinin hər 1000 nəfərinə düşən nikah və boşanmaların sayı	
			nikahlar	boşanmalar			nikahlar	boşanmalar	nikahlar	boşanmalar	nikahlar	boşanmalar
Azərbaycan Respublikası	79172	9061	8,9	1,0	56314	17191	5,6	1,7	71,1	189,7	62,9	170,0
Bakı şəhəri	19133	3539	9,2	1,7	14175	5322	6,2	2,3	74,1	150,4	67,4	135,3
Naxçıvan MR	3397	333	8,4	0,8	2675	644	5,8	1,4	78,7	193,4	69,0	175,0
Abşeron-Xızı	3951	595	7,6	1,1	3218	1183	3,7	1,8	81,4	198,8	48,7	163,6
Dağlıq Şirvan	2650	193	9,2	0,7	1927	404	6,0	1,2	72,7	209,3	65,2	200,0
Gəncə-Daşkəsən	4277	558	5,3	0,9	3199	1199	5,2	1,8	73,1	214,9	98,1	200,0
Qarabağ	6032	787	6,1	0,8	4760	1058	5,4	1,6	108,8	134,4	88,5	200,0
Qazax-Tovuz	5355	396	8,5	0,6	3645	934	5,5	1,3	68,1	235,8	64,7	216,7
Quba-Xaçmaz	4705	418	9,8	0,9	3332	778	5,8	1,4	70,8	186,1	59,2	155,5
Lənkəran-Astara	7213	353	9,2	0,4	3878	1268	3,9	1,2	53,7	359,2	42,4	300,0
Mərkəzi Aran	6059	501	8,0	0,8	4329	1827	4,9	2,0	71,5	364,7	61,3	250,0
Mil-Muğan	4407	215	0,6	0,6	2949	611	5,6	1,2	66,9	284,2	933,3	200,0
Şəki-Zaqatala	3595	422	1,2	0,7	3869	829	6,2	1,3	109,0	196,4	51,7	185,7
Şərqi-Zəngəzur	2630	427	9,0	1,5	1856	655	5,5	2,0	51,9	155,2	61,1	133,3
Şirvan-Salyan	3840	284	9,8	0,7	2770	735	5,4	1,5	97,5	258,8	55,1	214,3

Cədvəl: [4; 5] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ölkə əhalisinin artıb-azalmasına, onun cins-yaş quruluşuna və milli tərkibinin dəyişilməsinə təsir edən amillərdən biri də ölkələrarası (Beynəlxalq) əhali miqrasiyası qalığının (saldosu) müsbət və mənfi nəticələrindən ibarətdir. Rəsmi statistik məlumatlara əsasən hələ 1988-ci ilin sonlarında başlamış Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ münaqişəsi, ölkəmizin müstəqilliyinin ilk illərində (1991-1995-ci illər) yaranmış sosial-iqtisadi çətinliklər; MDB ölkələri ilə sərhədlərin şəffaf olması və s. nəticəsində daimi yaşamaq üçün respublikamıza gələnlərin və daimi yaşamaq üçün buradan başqa dövlətlərə gedənlərin sayının əhəmiyyətli dərəcədə artması və **gedənlərin gələnlərin sayını xeyli üstələməsi respublikamızda yaşayan əhalinin cins-yaş quruluşunun, milli tərkibinin və bir çox başqa kəmiyyət-keyfiyyət göstəricilərinin dəyişilməsinə, səbəb olmuşdur.** Belə ki, müstəqilliyimizin ilk dövrünü əhatə edən 5 il ərzində (1991-1995-ci illər) Azərbaycan Respublikasına daimi yaşamaq üçün gələn imiqrantların sayı 133,1 min nəfər təşkil etdiyi halda, buradan daimi yaşamaq üçün başqa ölkələrə çıxıb gedən miqrantların sayı 220,4 min nəfər təşkil etmiş və miqrasiya qalığı (saldosu) mənfi 87,3 min nəfər təşkil etmişdir [4; 5]. Başqa sözlə desək, ölkəmizdən daimi yaşamaq üçün başqa ölkələrə gedən miqrantların sayı buraya daimi yaşamaq üçün gəlmiş imiqrantların sayını üstələmişdir. Qeyd edilən dövrdə ölkəmizə

daimi yaşamağa gələnlərin 118,3 min nəfəri və ya 65,3 faizi; buradan gedənlərin isə 184,8 min nəfəri və ya 59,7 faizi 1991-1993-cü illərin payına düşmüşdür [4; 5].

Bütünlükdə götürüldükdə 1991-1997-ci illərdə Azərbaycan Respublikasından qanuni əsaslarla daimi yaşamaq üçün başqa ölkələrə çıxıb gedənlərin sayı 272,1 min nəfər təşkil etmişdir. Onların əsas hissəsini **ruslar** (112,7 min nəfəri və ya 41,4 faizi); **azərbaycanlılar** (65,5 min nəfəri və ya 24,1 faizi); **ermənilər** (35,9 min nəfəri və ya 13,2 faizi); **yəhudilər** (11,1 min nəfəri və ya 4,1 faizini) və **ukrainlər** (9,8 min nəfərini və ya 3,6 faizini) və s. təşkil etmişlər [8]. Bu illərdə daimi yaşamaq üçün Azərbaycan Respublikasına gələnlərin sayı isə buradan gedənlərin sayından xeyli az olmuşdur. Həmin illərdə respublikamıza qanuni yolla 123,3 min nəfər gəlmişdir ki, onların da 93,8 min nəfərini **azərbaycanlılar** (76,1 faizi); 10 min nəfərini **ruslar** (8,1 faizi); 19,5 min nəfərini isə digər millətlərin və xalqların nümayəndələri təşkil etmişlər. Sonrakı illərdə Azərbaycan Respublikasında daimi yaşamağa gələn miqrantların sayı ilə daimi yaşamaq üçün Azərbaycan Respublikasını tərk edib başqa ölkələrə gedən əhalinin miqrasiya qalığının (saldosunun) vəziyyətini isə aşağıda təqdim edilən 11-ci cədvəlin məlumatlarından aydın görmək olar. Həmin cədvəlin məlumatlarından görünür ki, 1998-ci ildən başlayaraq həm daimi yaşamaq üçün ölkəmizə gələnlərin, həm də daimi yaşamaq üçün ölkəmizi tərk edən başqa ölkələrə çıxıb gedənlərin sayı get-gedə azalmağa başlamış və hazırda demək olar ki, minimum səviyyəyə gəlib düşmüşdür. Ən əsası isə ondan ibarətdir ki, əgər 2003-cü ilədək daimi yaşamaq üçün ölkəmizi tərk edərək başqa ölkələrə çıxıb gedənlərin sayı daimi yaşamaq üçün başqa ölkələri tərk edib ölkəmizə gələnlərin sayını üstələyirdisə, yəni əhalinin miqrasiya qalığı (saldosu) mənfi xarakter daşımışdırsa, 2008-ci ildən başlayaraq bu sahədə vəziyyət müsbət xarakter almağa başlamışdır.

Cədvəl 11.

Azərbaycan Respublikasına daimi yaşamağa gələn və daimi yaşamaq üçün gedən əhalinin dinamikası

	Daimi yaşamaq üçün Azərbaycan Respublikasına gələnlərin sayı (min nəfər)	Daimi yaşamaq üçün Azərbaycan Respublikasından çıxıb gedən əhalinin sayı (min nəfər)	Miqrasiya Qalığı (saldosu) (min nəfər)
1997	7,5	15,7	-8,2
1998	5,4	10,5	-5,0
1999	4,8	9,1	-4,3
2000	4,4	9,9	-5,5
2003	2,5	3,8	-1,3
2005	2,0	2,9	-0,9
2008	3,6	2,5	+1,1
2010	2,2	0,5	+1,7
2015	2,7	1,6	+1,1
2018	3,2	1,6	+1,6
2019	2,0	1,6	+0,4
2020	1,7	0,6	+1,1
2021	2,4	0,6	1,8
2022	2,9	1,1	+1,8

Cədvəl: [4; 5] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qeyd etmək lazımdır ki, həmin ildən sonra daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı, daimi yaşamaq üçün ölkəmizi tərk edib başqa ölkələrə gedənlərin sayını xeyli üstələməyə başlamış və üstünlük dönməz xarakter almışdır. Belə ki, əgər 2008-ci ildə daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı 3,6 min nəfər, daimi yaşamaq üçün buranı tərk edib başqa ölkələrə gedənlərin sayı 2,5 min nəfər təşkil etmiş və əhalinin miqrasiya qalığı (saldosu) müsbət 1,1 min nəfər olmuşdursa, 2010-cu ildə bu miqrasiya qalığı (saldosu) müsbət 1,7 min nəfər; 2015-ci ildə müsbət 1,1 min nəfər, 2018-ci ildə müsbət 1,6 min nəfə; 2019-cu ildə müsbət 0,4 min nəfər; 2021-ci və 2022-ci illərdə isə müsbət 1,8 min nəfər təşkil

etmişdir. Bütün bunlar isə istər-istəməz respublikamızın əhalisinin milli tərkibinin və cins-yaş quruluşunun dəyişilməsinə təsirsiz qalmamışdır. 1989-cu ildə SSRİ vaxtı və 1999, 2009 və 2019-cu illərdə müstəqillik dövründə ölkəmizdə keçirilmiş əhalinin ümumi siyahıyaalınması məlumatlarının təhlilinə əsasən müəyyən edilmişdir ki, bu illər (1989-2019-cu illər) ərzində Azərbaycan Respublikasının əhalisinin ümumi sayı 141,7 faiz artaraq 7021,2 min nəfərdən 9951,4 min nəfərə, o cümlədən azərbaycanlıların sayı 162,6 faiz artaraq 5805 min nəfərdən 9436,1 min nəfərə; talışların sayı4,1 dəfədən çox (413,2 faiz) artaraq 21,2 min nəfərdən 112min nəfərə; türklərin sayı 1,7 dəfədən çox (172,3 faiz) artaraq 17,7 min nəfərdən 38 min nəfərə; tatların sayı 2,7 dəfədən çox (271,6 faiz) artaraq 10,2 min nəfərdən 25,2 min nəfərə; avarların sayı 110,2 faiz artaraq 44,1 min nəfərdən 49,8 min nəfərə; saxurların sayı 100,8 faiz artaraq 13,3 min nəfərdən 13,4 min nəfərə gəlib çatmışdır. Başa millətlərdən olanların sayı isə müxtəlif səbəblərdən bu və ya digər dərəcədə azalmışdır. 2019-cu ilin əhalinin siyahıyaalınması məlumatlarına əsasən ölkə əhalisinin tərkibində azərbaycanlıların xüsusi çəkisi 94,8 faiz (1989-cu ildə 82,7 faiz); ləzgilərin xüsusi çəkisi 1,7 faiz (1989-cu ildə 2,4 faiz); talışların xüsusi çəkisi 0,9 faiz (1989-cu ildə 0,3 faiz); avarların xüsusi çəkisi 0,5 faiz (1989-cu ildə 0,6 faiz); türklərin xüsusi çəkisi 0,3 faiz (1989-cu ildə 0,2 faiz); tatarların xüsusi çəkisi 0,3 faiz (1989-cu ildə 0,14 faiz); rusların xüsusi çəkisi 0,7 faiz (1989-cu ildə 5,6 faiz) və sair təşkil etmişdir.

Cədvəl12.

Müstəqillik illərində Azərbaycan Respublikasında əhalinin milli tərkibinin dinamikası

Əhalinin milli (etnik) tərkibi	1989-cu il		1999-cu il		2009-cu il		2019-cu il		1989-2019-cu illərdə %
Əhalinin sayı cəmi	**Cəmi əhali (min nəfər)**	**Yekuna nisbətən %**	**Cəmi əhali (min nəfər)**	**Yekuna nisbətən %**	**Cəmi əhali (min nəfər)**	**Yekuna nisbətən %**	**Cəmi əhali (min nəfər)**	**Yekuna nisbətən %**	
Cəmi	7021,2	100,0	7953,4	100,0	8922,4	100,0	9951,4	100,0	141,7
azərbaycanlılar	5805,0	82,7	7205,5	90,6	8172,8	91,6	9436,1	94,8	162,6
ləzgilər	171,4	2,4	178,0	2,2	180,3	2,0	167,6	1,7	97,8
talışlar	21,2	0,3	76,8	1,0	112,0	1,3	87,6	0,9	413,2
ruslar	392,3	5,6	141,7	1,8	119,3	1,3	71,0	0,7	18,1
ukraynalılar	32,3	0,5	29,0	0,4	21,5	0,3	13,9	0,1	46,2
avarlar	44,1	0,6	50,9	0,6	49,8	0,6	48,6	0,5	110,2
türklər	17,7	0,2	43,4	0,5	38,0	0,4	30,5	0,3	172,3
tatlar	10,2	0,14	10,9	0,13	25,2	0,3	27,7	0,3	271,6
saxurlar	13,3	0,2	15,9	0,2	12,3	0,1	13,4	0,1	100,8
gürcülər	14,2	0,2	14,9	0,2	9,9	0,1	8,4	0,1	59,2
ingiloylar	-	-	-	-	-	-	1,8	0,0	-
kürdlər	12,2	0,2	13,1	0,2	6,1	0,1	4,1	0,0	33,6
tatarlar	28,6	0,4	30,0	0,4	25,9	0,3	17,7	0,2	61,9
qrızlar	-	-	-	-	4,4	0,04	2,1	0,0	-
yəhudilər	30,8	0,4	8,9	0,1	9,1	0,1	5,1	0,1	6,8
udinlər	6,1	0,1	4,1	0,05	3,8	0,04	3,5	0,1	57,4
xınalıqlar	-	-	-	-	2,2	0,02	3,5	0,0	-
buduqlar	-	-	-	-	-	-	1,1	0,0	-
ermənilər	390,3	5,6	120,7	1,5	120,3	1,3	0,2	0,0	-
hopurlar	-	-	-	-	-	-	2,5	0,0	-
digər millətlər	31,3	0,46	9,6	0,12	9,5	0,1	5,0	0,1	16,0

Cədvəl: [4; 5] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bütün bu dəyişikliklər nəticəsində ölkəmizin əhalisinin cins-yaş quruluşu da xeyli dəyişmişdir. Bu dəyişikliklər isə əhalinin siyahıyaalınması məlumatları əsasında tərtib edilmiş 13-cü cədvəlin məlumatlarında öz əksini tapmışdır. Həmin cədvəlin məlumatlarına əsasən son

30 il (1989-2019-cu illər) ərzində Azərbaycan Respublikasının əhalisinin sayı 141,7 faiz artaraq 7021,2 min nəfərdən 9951,4 min nəfərə, o cümlədən kişilərin sayı 145,6 faiz artaraq 3423,8 min nəfərdən 4948,5 min nəfərə, qadınların sayı 139,5 faiz artaraq 3597,4 min nəfərdən 5002,9 min nəfərə gəlib çatmışdır. Əhalinin ayrı-ayrı yaş qrupları üzrə artım səviyyəsinə gəldikdə isə bu artımın ən yüksək səviyyəsi 60 və yuxarı yaşda olan hissəsində (təqribən 2,1 dəfə); 30-49 yaşda olanlar (204,4 faiz) və 50-59 yaşda olanlar arasında (194,2 faiz) qeydə alınmışdır. Burada diqqətimizi çəkən məqamlardan biri ondan ibarətdir ki, qeyd edilən hər üç yaş qruplarına daxil olan əhali arasında qadınların sayının artımı kişilərlə müqayisədə xeyli azdır. Digər bir məqam isə ondan ibarətdir ki, həm 0-14 yaşda olan uşaqların və həm də 15-29 yaşda olan gənclərin artım səviyyəsi xeyli azdır və bu yaş qruplarına daxil olanlar arasında qız uşaqlarının və gənc qızların sayının artım səviyyəsi sevindirici deyildir. Ən pisi isə ondan ibarətdir ki, müqayisə edilən dövrdə 0-14 yaşda olan qız uşaqlarının sayı nəinki artıb çoxalmamış, əksinə 4,0 faiz azalmış; gənclər arasında isə onların sayı oğlanların sayının 112,6 faiz artmasına rəğmən cəmi 109,2 faiz artmışdır. Bunun əsil səbəbi isə yuxarıda qeyd etdiyimiz kimi axır onilliklər ərzində diri doğulan uşaqlar arasında qızların xüsusi çəkisinin nisbətən az olması ilə bağlıdır. Narahatçılıq doğuran məsələlərdən biri isə ondan ibarətdir ki, tədqiq edilən dövrdə (1989-2019-cu illər) ölkə əhalisinin tərkibində 0-14 yaşda olan uşaqların xüsusi çəkisi 9,6 faiz bənd azalaraq 32,8 faizdən 23,2 faizə, o cümlədən oğlan uşaqlarının xüsusi çəkisi 9,6 faiz bənd azalaraq 34,5 faizdən 24,9 faizə; qızlar arasında 9,6 faiz bənd azalaraq 31,1 faizdən 21,5 faizə; 15-29 yaşda olan gənclərin xüsusi çəkisi 6,4 faiz bənd azalaraq 29,7 faizdən 23,3 faizə; o cümlədən oğlanların xüsusi çəkisinin 6,6 faiz bənd azalaraq 30,1 faizdən 23,5 faizə; qızların xüsusi çəkisinin isə 6,3 faiz bənd azalaraq 29,4 faizdən 23,1 faizə düşməsindən ibarətdir. Digər narahatçılıq doğuran məqamlardan biri də ondan ibarətdir ki, qeyd edilən dövrdə əhalinin tərkibində 60 və yuxarı yaşda olanların xüsusi çəkisi 3,5 faiz bənd artaraq 7,9 faizdən 11,4 faizə; o cümlədən kişilər üzrə 4,1 faiz bənd artaraq 6,1 faizdən 10,2 faizə; qadınlar üzrə isə 3,0 faiz bənd artaraq 9,6 faizdən 12,6 faiz qalxmışdır. Doğrudur, əhalinin tərkibində 60 və yuxarı yaşda olanların xüsusi çəkisinin artması ölkədə əhalinin ömür uzunluğunu səciyyələndirən hal olub, müsbət hadisə kimi qiymətləndirilə bilər. Ancaq onu da nəzərə almaq lazımdır ki, bu göstərici həm də ölkə əhalisinin demoqrafik qocalması prosesinin sürətləndiyini göstərən hal kimi qiymətləndirilə bilər.

Tədqiqatlar deməyə əsas verir ki, lazımi səmərəli demoqrafik siyasət tədbirləri işlənib hazırlanıb həyata keçirilməsə yaxın və uzaq gələcəkdə ölkəmiz demoqrafik çətinliklərlə və buradan irəli gələn bir çox sosial-iqtisadi, siyasi, etno-demoqrafik və sair bu kimi həlli mürəkkəb və çətin olub problemlərlə üzləşə bilər.

Cədvəl 13.

Azərbaycan respublikasında əhalinin cins-yaş quruluşunun dəyişilmə dinamikası

Yaş	1999-cu il							2019-cu il						
	Cəmi əhali		Onlardan				Qadınların xüsusi çəkisi %-lə	Cəmi əhali		Onlardan				Qadınların xüsusi çəkisi %-lə
			Kişilər		Qadınlar					Kişilər		Qadınlar		
	Min nəfər	Yekuna nisbətən %-lə	Min nəfər	Yekuna nisbətən %-lə	Min nəfər	Yekuna nisbətən %-lə		Min nəfər	Yekuna nisbətən %-lə	Min nəfər	Yekuna nisbətən %-lə	Min nəfər	Yekuna nisbətən %-lə	
Cəmi	7021,2	100	3423,8	100	3597,4	100	51,2	9951,4	100	4948,5	100	5002,9	100	50,3
0-14	2301,9	32,8	1182,1	34,5	1119,8	31,1	48,6	2304,5	23,2	1229,4	24,9	1075,1	21,5	46,6
15-29	2087,2	29,7	1031,2	30,1	1056,0	29,4	50,6	2313,9	23,3	1160,9	23,5	1153,0	23,1	49,8
30-49	1439,1	20,5	695,9	20,3	749,2	20,6	51,6	2941,6	29,6	1456,2	29,4	1485,4	29,7	50,5
50-59	641,6	9,1	307,0	9,0	334,6	9,3	54,5	1250,7	12,5	592,9	12,0	657,8	13,1	52,6
60 və yuxarı	551,4	7,9	207,6	6,1	343,8	9,6	62,4	1140,7	11,4	509,1	10,2	631,6	12,6	57,1

Cədvəl: [4; 5] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Nəticə

Apardığımız araşdırmanın nəticəsində müəyyən edilmişdir ki, hazırda Azərbaycan Respublikasının demoqrafik inkişafının ümumi vəziyyəti əhalinin doğum səviyyəsinin aşağı düşməsi, ölüm səviyyəsinin nisbətən sabit qalması, körpə və ana ölümünün nisbətən yüksək olması, nikaha daxil olmaların azalması, boşanma hallarının sürətlə artıb-çoxalması, əhalinin yaş quruluşunun gənclərin (0-14 və 15-29 yaş) azalması; 60 və yuxarı yaşda olanların xüsusi çəkisinin artması, əhalinin tərkibində qadınların xüsusi çəkisinin tədricən azalması; şəhər yerlərində yaşayan əhalinin xüsusi çəkisinin artması; əhalinin miqrasiya qalığının (saldosunun) müsbət xarakter alması; ömür uzunluğunun və sağlamlıq səviyyəsinin nisbətən yüksəlməsi və sair bu kimi hallarla səciyyələnir. Bütün bunların nəzərə alınıb tənzimlənməməsi gələcəkdə respublikanın demoqrafik inkişaf vəziyyətinin nəzərə çarpacaq dərəcədə dəyişilməsinə, dövlət tərəfindən sosial sığortanın və pensiya təminatının maliyyələşdirilməsinin gərginləşməsinə, azuşaqlı ailə modelinin formalaşmasına səbəb olmaqla, gənclər kontingentinin azalmasına və ailələrin qurulmasına çətinlik törədilməsinə gətirib çıxardar və nəticə etibarilə ölkənin milli təhlükəsizliyinə mənfi təsir göstərə bilər. Ölkəmizdə yaranmış demoqrafik vəziyyətin və əhalisakinliyinin inkişaf dinamikası və quruluşunda baş vermiş dəyişikliklərin təhlil edilib öyrənilməsi və ümumiləşdirilməsi əsasında müəyyən edilmişdir ki, burada ilk növbədə aşağıdakı sosial-iqtisadi və demoqrafik problemlər həll edilməlidir:

- əhalinin doğum səviyyəsinin sürətlə azalmasına və ömür uzunluğunun nisbətən aşağı olmasına (xüsusilə əmək qabiliyyətli yaşda kişilər arasında) təsir edən amillərin aradan qaldırılması;
- nikaha daxil olma hallarının azalmasına və boşanma hallarının sürətlə artmasına təsir edən amillərin aşkara çıxardılıb qarşısının alınması;
- ana və uşaq ölümünün artmasına təsir edən amillərin aşkara çıxarılıb qarşısının alınması;
- əhalinin cins-yaş quruluşunun təkmilləşdirilməsi və əhalinin tərkibində fertil yaşda (15-49 yaşda) qadınların xüsusi çəkisinin artmasına təsir edən amillərin gücləndirilməsi qadınların, o cümlədən, gənc əməkqabiliyyətli yaşda ana-qadınların işsizlik səviyyəsinin

azaldılması və peşə-ixtisas və təhsil səviyyəsinin yüksəldilməsi sahəsində tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsinin təmin edilməsi;

- əhalinin ümumi sağlamlığının, o cümlədən, ailələrdə reproduktiv sağlamlığın qorunması ilə bağlı demoqrafik siyasət tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsinin təmin edilməsi;
- nikaha daxil olan gənclərin tibbi-psixoloji və ailə planlaşdırılması üzrə tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi;
- erkən nikaha daxil olma və qohumlar arasında nikaha daxil olma hallarının səbəbləri, miqyası və sosial-demoqrafik nəticələrinin aşkara çıxarılıb ümumiləşdirilməsi və onun mənfi nəticələrinin aradan qaldırılmasına dair kompleks tədbirlər sisteminin işlənib hazırlanması;
- azuşaqlı ailələrin sayının və xüsusi çəkisinin azalmasına təsir edən amillərin qarşısının alınması və ailələrdə uşaqların sayının çoxaldılmasının stimullaşdırılmasına dair təsirli sosial-iqtisadi tədbir sisteminin işlənib hazırlanması və həyata keçirilməsinin təmin edilməsi;
- uşaqların saxlanması və tərbiyəsinə yönəldilən xərclərin artırılması və bu xərclərin dövlət tərəfindən ödənilməsinə dair təklif və tövsiyələrin işlənib hazırlanması və həyata keçirilməsinin təmin edilməsi.

Nəhayət, qeyd edilən tədbirlərin həyata keçirilməsi məqsədilə demoqrafiya və əhali sakinliyi sahəsində daha təkmil və fəal səmərəli demoqrafik siyasət tədbirlərini özündə birləşdirən konsepsiyanın işlənib hazırlanması, əhali sakinliyi və demoqrafiya sahəsində yeni Dövlət Proqramının işlənib hazırlanması və həyata keçirilməsinə böyük ehtiyac vardır.

Ədəbiyyat

1. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası // Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. – Bakı – 2012 – 39 s. https: //president.az/files/future_az.pdf.
2. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası/ - Bakı: 2022, 453 s. https://e-qanun.az/framework/50013
3. Azərbaycan Respublikası Milli Məclisinin 2001-ci il 30 mart tarixli iclasında qəbul edilmiş Bəyanatı. Azərbaycan qəzeti, 31 mart 2001-ci il, №71 (2784).).
4. Azərbaycan Respublikası Statistika Komitəsi. Azərbaycanın demoqrafik göstəriciləri. https://www.stat.gov.az/source/demoqraphy/
5. Azərbaycan Respublikası Statistika Komitəsi. Azərbaycanın statistic göstəriciləri 2023. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
6. K.Marks və F.Engels. seçilmiş əsərləri. Üç cilddə. I cild. Bakı, 1978, səh. 8.
7. Şahbaz Muradov. “Azərbaycan Respublikasının demoqrafik inkişafı: tarixi dəyişiklikləri, yeni meyllər, problemlər” (1828-2020-ci illər). Bakı, “Elm və Bilik” nəşriyyatı. 2021-ci il, səh. 7
8. Şahbaz Muradov, İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı. “Elm”, 2004. Səh. 457
9. Xalq” qəzeti. “23” aprel 2009-cu il
10. Первая Всеобщая Перепись Населения Российской Империи. 1897 г. LXI Бакинская Губерния 1905. с. 2-3; Елизаветопольская Губерния LXIII. 1904, с. 2-3; Елизаветопольская Губерния 1905, с. 2-3.
11. Статкомитет СНГ www.cisstat.org
12. Population Reference Bureau. 2020. World Population Data Sheet

Шахбаз Мурадов
д.э.н., проф. член-корреспондент НАНА
Министерство Науки и Образования Азербайджанской Республики
Институт Экономики заведующая отделом «Демография и проблемы занятости»
Демографическая ситуация в Азербайджанской Республике: основные тенденции и проблемы
Резюме

В статье рассмотрены численность населения в городской и сельской местности Азербайджанской Республики, численность населения в отдельных экономических районах, численность населения, половозрастная структура, показатели естественного воспроизводства населения (рождаемость, смертность). Изучены, проанализированы и оценены изменения других демографических явлений и процессов и факторов, влияющих на них, а также сделаны предложения и рекомендации по разработке и реализации демографической политики вы тикающие из них меры.

Shahbaz Muradov
d.e., prof. Corresponding member of ANAS
Ministry of Science and Education of the Republic of Azerbaijan
Institute of Economics Head of the "Demography and employment problems" department.
Demographic situation in the Republic of Azerbaijan: major trends and challenges.
Summary

In the article, the number of people in urban and rural areas of the Republic of Azerbaijan, the number of people in separate economic regions, the number of people, the sex-age structure, the natural reproduction indicators of the population (birth, death, natural increase), population migration, health, life expectancy, marriages and divorces and Changes in other demographic events and processes and the factors affecting them were studied, analyzed and evaluated, and proposals and recommendations were made for the development and implementation of demographic policy measures resulting from them.

Elmi redaktor: i.e.d. Y.Məmmədov
Daxil olub: 06.11.2023.
Çapa qəbul olunub: 13.11.2023.